RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 263 (8579) ÇƏRŞƏNBƏ AXŞAMI, 15 dekabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# TARİXƏ QIZIL HƏRFLƏRLƏ YAZILAN TARİXİ QƏLƏBƏ

**Böyük Zəfər Gününü də gördük!**

**Bu sevinci və xoşbəxtliyi də yaşadıq!**

*Ordusunu məhv etdiyimiz düşmənin kapitulyasiyasında gücünü və qüdrətini təsdiq edən Azərbaycan Ordusunun Qələbə paradının qürurunu da duyduq!*

*Xalqımızın, dünya azərbaycanlılarının, Azərbaycansevərlərin aşıb-daşan sevincini Azadlıq meydanına cəmləyərək buradan Yer üzünün hər tərəfinə yaydıq!*

**Hamı bildi ki, Azərbaycan qalibdir!**

**Hamı gördü ki, Azərbaycan Ordusu erməni işğalçı ordusunu diz çökdürdü!**

**Hamı gördü ki, Azərbaycan əsgəri qəhrəmanlıqla döyüşərək faşist xislətli düşməni öz torpaqlarından sürətlə qovdu, bir qarış ərazisini belə özgədə qoymadı!**

**Bu, Azərbaycan xalqının möhtəşəm Qələbəsidir!**

*Bu, Azərbaycan Ordusunun hünər və şərəfli çarpışmasının məntiqi və qanuni nəticəsidir!*

*Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ikiəsrlik münaqişəyə əbədilik nöqtə qoyan və tarixə qızıl hərflərlə həkk edilən tarixi Qələbəsidir!*

*Bu, həm də Azərbaycan - Türkiyə qardaşlığının, bir millətin iki dövlətinin rəhbərləri olan İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın sarsılmaz dostluğunun və birliyinin təntənəsidir.*

❖ ❖ ❖

İki il bundan qabaq - 15 sentyabr 2018-ci ildə bu iki qardaş və qalib sərkərdə Bakının bolşevik-daşnak əsarətindən azad edilməsinin 100 illiyinə həsr olunmuş təntənəli hərbi paradın tribunasında da qoşa dayanmışdılar!

O zaman cənab İlham Əliyev tezliklə Şuşada qaldırılacaq Qələbə bayrağının Bakıya gətirilərək Azadlıq meydanında dalğalandırılacağına söz verdi!

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq işi uğrunda mübarizəsinə daim dəstək verəcəklərini bəyan etdi!

*Bu gün hər iki Sərkərdə dediklərinə əməl etdiklərini də birlikdə nümayiş etdirdilər!*

*Bəli, Şuşada ucaldılan Qələbə bayrağı Azadlıq meydanında dalğalandırılır!*

*Dost və qardaş ölkələrin rəhbərləri isə möhtəşəm paradı seyr edərək haqlı və şərəfli qələbələrindən məğrurcasına qürur duyurlar!*

**Qələbə dostluğundur və qardaşlığındır!**

**Qarabağ Azərbaycandır!**

❖ ❖ ❖

*Zəfər paradını Müzəffər Ali Baş Komandan İlham Əliyev qəbul edirdi!*

*Azərbaycan Ordusunun qurucusu, müharibənin baş qəhrəmanı, xalqımızı möhtəşəm qələbəyə çatdıran Prezident İlham Əliyev!*

**Bu gün onun hamıdan çox sevinməyə, hamıdam çox zəfər sevincini yaşamağa, hamıdan çox qürur duymağa haqqı var!**

*Zəfər paradını qardaş Türkiyəni dünya dövlətinə çevirən, haqq işi uğrunda mücadiləsində Azərbaycanı birmənalı və hərtərəfli şəkildə dəstəkləyən, daim yanında olan hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan qəbul edirdi!*

Onun sevinci dost sevincidir, dostunun qələbəsinə verdiyi töhfələrdən doğan məmnunluq sevincidir, Azərbaycanın düşmən üzərindəki tarixi qələbəsindən duyduğu qanuni iftixar hissindən yaranan sevincdir!

**Bu məqamda sevinməyən, qürur və iftixar duymayan insan yoxdur!**

**Bu gün harada yaşamasından asılı olmayaraq, Azərbaycan xalqının tarixi qələbəsindən fərəhlənməyən azərbaycanlı da tapa bilməzsən!**

**Budur birlik, budur qüvvət, budur milli birliyimizdən doğan möhtəşəmlik!**

❖ ❖ ❖

Əvvəlcə Müzəffər Ali Baş Komandan İlham Əliyev təntənəli nitq söylədi!

**Qalib Sərkərdəyə məxsus sevinc və qürurla!**

**Xalqının etimadını doğruldan Rəhbər, düşməni məğlub edərək rəzil günə salan Ali Baş Komandan kimi!**

**Hər sözü dosta bir sevinc və fərəh, düşmənə qurğuşun ağırlığında!**

Qısa və parlaq nitqində 30 il davam edən işğala, dünyadakı proseslərə, Azərbaycan Ordusunun rəşadətli hərbi əməliyyatlarına dəqiq qiymət verdi.

**Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan orijinal bir çıxış etdi.**

*Öz çıxışını Azərbaycan şairlərinin şeirləri ilə bəzədi!*

*Dünya çaplı dövlət rəhbəri, müdrik və təcrübəli insan, Azərbaycan xalqının böyük dostu kimi bu münaqişəyə və müharibəyə münasibətini bildirdi, daim yanımızda olduqlarını və olacaqlarını söylədi, xalqımızı səmimi-qəlbdən təbrik etdi.*

Bu tarixi nitqlərin bəzi məqamlarını olduğu kimi diqqətinizə təqdim edirik.

*Ardı 2-ci səh.*

## "Hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantının təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 sentyabr tarixli 2281 nömrəli Sərəncamının ləğv edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Hərbi vəziyyət dövründə komendant saatının tətbiq edildiyi ərazilərin komendantının təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 sentyabr tarixli 2281 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1192) ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2020-ci il*

## Siyasətdə sağlam münasibətlərin təşviqi ilə bağlı iqtidarın təşəbbüsləri davam edir

Azərbaycan ictimaiyyəti xüsusilə son bir il ərzində iqtidarın ölkəmizdə siyasi dialoq mühitinin təşviqi ilə bağlı müxtəlif səpgili layihələrin şahididir. Siyasətdə sağlam münasibətlərin dəstəklənməsi məsələsi ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşması istiqamətində atılan inamlı addımlardır.

Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan islahatlar ölkədə yeni siyasi konfiqurasiyanın formalaşması ilə yanaşı, siyasətdə peşəkar və demokratik münasibətlərin bərqərar olunmasını da tələb edir. Hakimiyyətin müxalifət nümayəndələri ilə mütəmadi şəkildə təşkil olunan görüşləri Azərbaycanda siyasi dialoq mühitinin inkişafına yönəlmiş siyasət kimi dəyərləndirilməlidir.

*Ardı 3-cü səh.*

## 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə dəymiş ziyanın ödənilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

"2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 6 noyabr tarixli 2292 nömrəli Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən təxirə salınmadan iş aparılır. Mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın dövlət vəsaiti hesabına aradan qaldırılmasına dair müvafiq təkliflər hazırlanır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ilkin mərhələdə zərərçəkmiş mülki əhalinin zəruri sosial ehtiyaclarının təmin edilməsi və onların məişət və şəxsi əşyalarına dəymiş ziyanın aradan qaldırılması məqsədilə **qərara alıram:**

1. 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhalinin əmlakına dəymiş ziyanla bağlı aşağıdakı məbləğdə maddi yardım ödənilsin:

1.1. dağıdılmış və ya qəzalı vəziyyətə düşmüş yaşayış evləri üzrə məişət əşyalarına dəymiş ziyanla bağlı hər bir ailəyə 6000 (altı min) manat, şəxsi əşyalara dəymiş ziyanla bağlı hər bir ailə üzvünə 1500 (min beş yüz) manat məbləğində;

1.2. digər ziyan dəymiş yaşayış evləri üzrə hər bir ailəyə 1000 (bir min) manat məbləğində.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın 1-ci hissəsinə uyğun olaraq maliyyələşməni təşkil etsin.

3. Aidiyyəti yerli icra hakimiyyəti orqanları bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş maddi yardımın yaşayış evlərinin sahiblərinə və ya onların qanuni nümayəndələrinə bank vasitəsilə ödənilməsini təmin etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 dekabr 2020-ci il*



## Xudavəng abidəsi də vandalların əsarətindən xilas oldu

Kəlbəcər Azərbaycanın yüksək dağlıq rayonlarından biridir. Mineral sularla, yeraltı və yerüstü təbii ehtiyatlarla, tarixi abidələrlə zəngin olan bu rayonun həm də bənzərsiz təbiəti var.

Kəlbəcərə qədəm qoyarkən diqqəti ilk çəkən rayonun əsrarəngiz təbiəti olur. Zirvəsindən ilin bütün fəsillərində qar əskik olmayan dağlar, sıldırım qayalar, sıx meşələr, şır-şırlı çaylar... səni nağıllar aləminə aparır.

Təəssüf ki, bu gün, yəni işğaldan azad edildikdən sonra addımbaşına ermənilərin həmin gözəlliyi məhv edən, ona qənim kəsilən vandallığı ilə də üzləşirik.

*Ardı 5-ci səh.*

## Güc yolu ilə bərpa olunan ədalət

### İlham Əliyev ATƏT-in Minsk qrupunun həll etmək istəmədiyi problemi Ermənistanı cəzalandırmaqla yoluna qoydu

İkinci Dağlıq Qarabağ müharibəsi son dövrlərin ən böyük hərbi-siyasi hadisələrindən biri oldu. Azərbaycanın tam qələbəsi ilə başa çatan bu müharibədə Ermənistanın işğal siyasətinə son qoyuldu. Eyni zamanda bu hadisə ilə Azərbaycan "problemin güc yolu ilə həlli yoxdur" deyənlərin bütün arqumentlərinin əsassız olduğunu sübut etdi.

### Vasitəçilər mandatlarına uyğun fəaliyyət göstərə bilmədilər

Artıq "Dağlıq Qarabağ problemi" deyilən bir anlayış yoxdur, çünki Azərbaycan ərazi bütövlüyünü bərpa edib, status-kvonu dəyişib. Bu məsələdə beynəlxalq hüquq həmişə Azərbaycanın tərəfində olub. Sovet hakimiyyətinin vilayət kimi yaratdığı Dağlıq Qarabağın ərazisi Azərbaycanın tarixi torpaqlarıdır və həmişə də ölkəmizin tərkibində olub. Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra Dağlıq Qarabağ bütün dünya tərəfindən Azərbaycanın ərazisi kimi tanınıb. Daha sonra BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistanın qoşunlarının işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması tələb olunub. Bundan başqa, bütün beynəlxalq təşkilatların müvafiq sənədlərində də Azərbaycanın ərazi bütövlüyü məsələsi tam təsbit olunub.

28 il bundan əvvəl öz missiyasına başlayan ATƏT-in Minsk qrupu da öz fəaliyyətində beynəlxalq hüquqa əsaslanmışdı. Lakin bu dövrdə qrup öz mandatına uyğun fəaliyyət göstərə, münaqişənin sülh yolu ilə həllinə nail ola bilməmişdi.

*Ardı 3-cü səh.*



## Evinizi taclı virusa qarşı möhkəm qalaya çevirin

### Epidemiyaya qalib gəlmək üçün vətəndaşlar dövlətə dayaq olmalıdırlar

Koronavirus xəstələrinin sayının azalması dövlətin gördüyü tədbirlərlə yanaşı, hər bir kəsin həyat tərzindən, gigiyenik qaydalara riayət etməsindən və ailə sağlamlığını qorumasından ciddi asılıdır.

Əgər ölkədə bu bəlaya yoluxanların sayı sürətlə artırsa və statistik rəqəmlər ciddi təhlükələrdən xəbər verirsə, deməli, hər birimizin bu bəla ilə mübarizədə buraxdığı səhvlər var. Onları müzakirə etmək, yanlışlıqları aradan götürmək hamımızın borcudur.

*Ardı 4-cü səh.*

Əvvəli 1-ci səh.

**PREZİDENT İLHAM ƏLİYEV:**

** Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır, sevindirir.*

** Mən 2003-cü ildə Prezident vəzifəsinə seçiləndə Konstitusiyamıza və müqəddəs Qurani-Kərimə əl basaraq and içmişdim ki, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Bu gün böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan öz istədiyinə nail oldu, tarixi ədaləti, beynəlxalq hüququ bərpa etdi.*

** Bu 44 günün hər günü bizim şanlı tariximizdir, hər gün Azərbaycan irəli gedirdi. Bu 44 gün ərzində bir gün də olmamışdır ki, biz geri çəkilək. Biz Ermənistanın 30 ilə yaxın müddət ərzində qurduğu istehkamları yararaq keçmişik.*

** Azərbaycan əsgər və zabitləri böyük qəhrəmanlıq, şücaət göstərərək şərəfli missiyanı yerinə yetirdi və öz doğma torpaqlarını işğalçılardan azad etdi. Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı rayonları, eyni zamanda Suqovuşan qəsəbəsi, Hadrut qəsəbəsi, Xocalı rayonunun bir hissəsi, Kəlbəcər rayonunun bir hissəsi, Murovdağ silsiləsi, Laçın rayonunun cənub hissəsi, strateji yüksəkliklər döyüş meydanında düşməndən azad edildi, orada Azərbaycan bayrağı qaldırıldı. Şanlı müharibəmizə Şuşa şəhərində yekun vuruldu. Noyabrın 8-də Şuşa şəhərinin azad edilməsi tarixi nailiyyətimizdir.*

** Şuşanın azad edilməsi tarixi hadisədir. Bizim Ordumuz, qəhrəman övladlarımız dağlardan, dərələrdən, meşələrdən, cığırlardan keçərək, sıldırım qayaları qət edərək, qayalara dırmaşa-dırmaşa Şuşaya qalxaraq orada əlbəyaxa döyüşdə düşməni məhv etdi, Azərbaycan bayrağını Şuşada qaldırdı. Ondan bir gün sonra daha 70 kənd işğalçılardan azad edildi və Ermənistan artıq təslim oldu, ağ bayraq qaldırdı, diz çökdü, öz layiqli cəzasını aldı və imdad dilədi. Biz Ermənistanı döyüş meydanında məhv etdik. Biz ermənilərin uzun illər yaratdıqları mifi darmadağın etdik.*

** Cəmi 44 gün ərzində Ermənistan ordusu məhv edildi, hərbi texnikası məhv edildi, canlı qüvvəsi məhv edildi və Azərbaycan öz gücünü, öz qüdrətini göstərdi.*

** Həyat göstərdi ki, vaxtında addımlar atdıq, bütün gücümüzü səfərbər edərək bir dəmir yumruq yaradıb düşmənin başını əzdik. Müharibə dövründə mən deyirdim ki, bizim dəmir yumruğumuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirir. Bu dəmir yumruq düşmənin belini qırdı, düşmənin başını əzdi. Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər Ordusu öz tarixi missiyasını yerinə yetirdi, Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın dəmir yumruğu onların belini qıracaq.*

** Bundan sonra Azərbaycan yalnız inkişaf edəcək. Bizim azad edilmiş torpaqlara bundan sonra həyat qayıdacaq.*

**PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞAN:**

** Azərbaycanın həm hərbi, həm də diplomatiya sahəsində əldə etdiyi bu uğurda ən böyük paylardan biri şübhəsiz ki, əziz qardaşım cənab Prezident İlham Əliyevə aiddir. Qardaşım İlham Əliyev bununla mərhum Heydər Əliyevin ona vəsiyyət olaraq etdiyi arzusunu da yerinə yetirmişdir.*

** Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəfəri birlikdə qeyd etmək üçün aranızdayıq.*

** Şəhidlərimizin fədakarlığı sayəsində Azərbaycan ərazi bütövlüyünü, şükür olsun, yenidən təmin etmişdir. Artıq Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış xarıbülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır.*

** Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm: Qarabağ Azərbaycandır! Qarabağ artıq Ana Vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır.*

** Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları daha abad, daha inkişaf etmiş, uşaqlarımızın daha yaxşı yaşayacağı bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izni ilə çətinliklərin öhdəsindən gəlməyə, uğurdan-uğura çatmağa davam edəcəkdir. Allah köməyimiz olsun!*

# TARİXƏ QIZIL HƏRFLƏRLƏ YAZILAN TARİXİ QƏLƏBƏ





❖ ❖ ❖

**Zəfər paradında təqribən üç min, Vətən müharibəsi şəhidləri qədər hərbçi iştirak edirdi.**

**Bunun rəmzi mənası vardı: Şəhidlər ölməz, Vətən bölünməz!**

**Bəli, şəhidlik zirvəsinə yüksələn hər bir Azərbaycan döyüşçüsü bu meydanda təmsil olunurdu!**

*Yəqin ki, onların ruhları da Azadlıq meydanındaydı, qələbə paradında bu sayaq iştirak edərək canlarını fəda etdikləri Zəfərin sevincinə qoşulmuşdular.*

**Zəfər paradında qazilərimiz də iştirak edirdilər!**

Bəzisi əlağacına dayanaraq gəlmişdi...

Bu qələbədə onların hər birinin payı, şəxsi töhfəsi vardı.

Həm də təkcə döyüşərək qələbənin qazanılmasında iştirak etməmişdilər.

*Onlar öz sağlamlıqları ilə də qələbəyə xüsusi paylarını əlavə etmişdilər.*




*Qazilərimiz həm də şəhidlərlə bu gün orduda xidmət edənlər arasında bir fəxarət körpüsü bağlantısını yerinə yetirirdilər.*

*Onların bu paradda iştirakı dövlətin bu qəbilədən olan insanlara xüsusi münasibətinin, hörmətinin, qayğı və diqqətinin daha bir təzahürüdür.*

Bütün qoşun növləri təmsil olunurdu.

**Qalib Azərbaycan Ordusunun əsgər və zabitləri ritmik marşın sədaları altında vüqarla, nizamla addımlayır, boy-buxunları, geyimləri, zəhmli görkəmləri ilə qəlbləri riqqətə gətirirdilər:**

Bunlar bizim igidlərdir!

*Torpağı işğaldan bu cəngəvərlər azad edib!*

*Düşməni torpaqlarımızdan bu igidlər qovub!*

*Şəhidlərin və qazilərin qisasını bu oğullar alıb!*

*Belə ordu ilə, belə qəhrəmanlarla fəxr etməyə dəyər!*

...Təntənəli marşın sədaları altında bir anda meydanda canlanma yaranır.

Qalib Azərbaycan Ordusunun Qələbə paradında iştirak edən qəhrəman əsgər və zabitlər, onların ardınca hərbi texnika hərəkətə başlayır.

Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət Bayrağı və şanlı hərb tariximizə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsinin Zəfər bayrağı altında tribunanın önündən keçir.



Dövlət bayrağı və Zəfər bayrağının ardınca Azərbaycan Ordusunun qoşun növlərinin bayraqları Azadlıq meydanında dalğalanır.

Vətən Müharibəsi Qəhrəmanı general-mayor Zaur Məmmədovun başçılıq etdiyi döyüş bayraqdarları qrupu Böyük Qələbənin qazanılmasında müstəsna xidmətləri olan hərbi hissələrin döyüş bayraqlarını Azadlıq meydanından keçirirlər.

Zəfər paradında qardaş Türkiyə Respublikası Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən fəxrlə addımlayırlar.




Silahlı Qüvvələrdən sonra meydana hərbi texnika daxil olur.

Düşmənin vurulub sıradan çıxarılmış, habelə qənimət götürülmüş hərbi texnikası, Azərbaycan Ordusuna məxsus müxtəlif adda və çeşiddə ən yeni silahlar, erməni ordusunu vahiməyə salan, məhv edən pilotsuz uçuş aparatları, raket kompleksləri bir-birini əvəz edir.

**Bəli, Zəfər paradında hər şey var: qəhrəmanlıqla, cəsarət və ruh yüksəkliyi ilə döyüşən şanlı Azərbaycan əsgər və zabitləri, onların ixtiyarına verilmiş ən yeni texnologiyaya əsaslanan silahlar, qardaş Türkiyənin dost münasibəti...**

**Bir də hamımızın həsrətlə gözlədiyimiz böyük Qələbə, Qələbə sevinci və bayramı!**

❖ ❖ ❖

Meydana erməni tankları "daxil olur!"

Lakin onlar özləri gəlməyib, gətiriblər!

Bir zamanlar erməni başbilənləri kimlərəsə arxalanaraq yeni müharibənin başlayacağı təqdirdə tanklarının və zirehli texnikalarının Bakının küçələrində görünəcəyi ilə lovğalanırdılar!

*Bu lovğalıq onlara baha başa gəldi, Müzəffər Ali Baş Komandan İlham Əliyev ordularını məhv etdi, özlərini diz çökdürdü, indi isə dağılmış ordunun zirehli texnikalarının "nümunə"lərini dünyaya göstərir: bir qismi Azərbaycan əsgərinin dəqiq atəşləri nəticəsində sıradan çıxarılaraq dağıdılmış halda, bir hissəsi isə hərbi qənimət kimi!*

*Onların sayı o qədərdir ki, hərbi paradda siyahısını belə səsləndirmək mümkünsüzdür!*

**Yığcam rəqəm isə belədir: Vətən müharibəsində təcavüzkarın 3,8 milyard dollarlıq hərbi texnikası məhv edilib və ya qənimət götürülüb!**

❖ ❖ ❖

Parada düşmən bayrağı da gətirilmişdir!

Məhv edilmiş Ermənistan ordusunun endirilmiş bayrağı...

Bükülmüş, əzilmiş, əski parçasına dönmüş vəziyyətdə.

Bu bayraqlar əbədi olaraq Azərbaycan əsgərinin çəkmələri altında olacaq, bir daha Qarabağı görməyəcək!

*Daha Azərbaycan ərazisində heç bir statuslu, yaxud qondarma qurum olmayacaq!*

*Münaqişəni hərbi yolla həll edən Müzəffər Ali Baş Komandan İlham Əliyevin və Azərbaycan xalqının iradəsi budur!*

❖ ❖ ❖

Meydana PUA-lar daxil olur!

Azərbaycan Ordusunun qısa müddətdə düşməni təslim etməsində mühüm rol oynayan pilotsuz uçuş aparatları!

* Məhz bu PUA-lar Azərbaycana XXI əsrin yeni müharibə nümunəsini yaratmağa kömək etdi!

* Məhz bu PUA-lar ən qısa vaxtda, ən az itki ilə ən yüksək nəticə qazanılmasına şərait yaratdı!

* Məhz bu PUA-lar düşmənin ən əlçatmaz yerlərdə, ən dərin səngərlərdə gizlənmiş canlı qüvvəsinin və zirehli texnikasının tapılıb məhv edilməsində başlıca vasitə oldu!

*Deyirlər Qarabağ müharibəsində iştirak edən ermənilərin indi də bir gözü göydədir və hər dəqiqə Azərbaycanın pilotsuz uçuş aparatlarının başlarına od ələyəcəyindən qorxurlar.*

Hərbi paradda bir çox yeni PUA-lar, raketlər, hava hücumundan müdafiə sistemləri nümayiş etdirildi.

Silahların bir qismindən Vətən müharibəsində istifadə edilmişdir.

Əgər ermənilər ağıllarını başlarına yığmasalar, qisasçılıq niyyətlərindən əl çəkməsələr, dadına baxa biləcəklər!

❖ ❖ ❖

Zəfər paradının təşkili, canlı qüvvənin qoşun növünə uyğun geyimi, şəxsi təchizatı, yüksək səviyyədə sıra keçidi, texniki təminatın müasirliyi və növ müxtəlifliyi qürur və heyrət doğurur, təkcə hərbçilərin deyil, tamaşaçıların da əhvali-ruhiyyəsini, aşıb-daşan sevinc və şadlıq hisslərini isə söz belə təsvir etməkdə acizdir!

* Bu tarixi qələbənin tarixi paradını gözlə görmək, kənardan müşahidə etmək özü bir ayrı zövq, tam yeni fərəh hissləri doğuran nadir tamaşa idi.

* Bu parad Azərbaycanın bir dövlət olaraq iqtisadi gücünün, siyasi nüfuzunun və diplomatik uğurlarının nümayişi idi.

* Bu parad həm də Azərbaycan ilə Türkiyənin, dünya çaplı iki görkəmli dövlət və siyasi xadimin - İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın dostluğunun, qardaşlığının və əməkdaşlığının numayişi idi!

* Bu parad Azərbaycan Ordusunun - igid Azərbaycan əsgər və zabitlərinin peşəkarlığının, onların malik olduqları silahların nümayişi idi!

* Bu parad dünyaya yeni taktika və strategiya, müharibə nümunəsi göstərən Azərbaycanın malik olduğu yeni silahların, PUA-ların nümayişi idi!

* Bu parad Ermənistanın məğlubiyyətinin, döyüş meydanlarında qoyub qaçdıqları silah-sursatın, müxtəlif növlü zirehli texnikanın nümayişi idi!

* Bu parad Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının tarixi qələbəsinin möhtəşəmliyini, Zəfərinin əzəmətini göstərən ümumxalq şənliyinin təntənəli nümayişi idi!

**Qələbə bizimdir!**
**Qarabağ bizimdir!**
**Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**







# Siyasətdə sağlam münasibətlərin təşviqi ilə bağlı iqtidarın təşəbbüsləri davam edir

*Əvvəli 1-ci səh.*



AZƏRTAC xəbər verir ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin siyasi partiya rəhbərləri və ictimai fəallar ilə görüşləri davam edir. Açıq fikir mübadiləsi şəraitində keçirilmiş növbəti görüşlər Azərbaycan Ümid Partiyasının sədri İqbal Ağazadə, Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Fəttayev, Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu, ReAL Partiyasının sədri İlqar Məmmədov və Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev ilə ayrı-ayrılıqda videokonfrans formatında təşkil olunub.

Görüşlər zamanı bir çox məsələlərlə yanaşı, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Vətən müharibəsində qazanılmış böyük qələbə və bu qələbəyə Azərbaycan xalqının verdiyi qiymət, xalq və ordu birliyi, qazilərə dövlət qayğısı və onların reabilitasiyası, Vətən müharibəsi kontekstində Azərbaycan və Türkiyə arasında qardaşlıq münasibətləri, işğaldan azad olunmuş ərazilərdə görüləcək işlər və əhalinin məskunlaşması, Azərbaycana qarşı intensiv şəkildə aparılan informasiya təzyiqləri fonunda milli və siyasi həmrəyliyin qorunmasının əhəmiyyəti və bu işdə siyasi partiyaların rolu müzakirə edilib. Həmçinin siyasi partiyalar haqqında yeni qanun layihəsi, Prezidentin dövlət quruculuğu məsələləri ilə bağlı təşəbbüsləri, vətəndaş cəmiyyəti institutlarının inkişafı üçün birgə reallaşdırıla biləcək layihələr, Azərbaycanda multikulturalizm ənənələri, ölkəmizdə yaşayan və yaşayacaq ermənilərə münasibət, eləcə də COVID-19 pandemiyası ilə mübarizədə maarifləndirmə işlərinin əhəmiyyəti və bir sıra digər önəmli mövzular ətrafında müzakirələr aparılıb.

Müasir tariximizin ən parlaq səhifələrindən olan Vətən müharibəsi ətrafında fikir mübadiləsi aparılaraq bildirilib ki, əldə edilən zəfərin əsas səbəbi Azərbaycan xalqının qələbəyə olan inamı idi. Azərbaycan xalqı və Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında bir yumruq kimi birləşərək xalqımızın yüzillik arzusunu gerçəkləşdirdi. Ordumuza cəmi 44 gün kifayət etdi ki, yüzilliklər boyu formalaşdırılmış erməni mifini darmadağın etsin. Döyüşlər nəticəsində ölkəmiz bütün dünyaya öz hərbi gücünü və iqtisadi qüdrətini açıq şəkildə nümayiş etdirdi.

Prezident Administrasiyasının rəsmisi siyasi partiyaların rəhbərləri ilə görüşlərində xalqın ordumuza göstərdiyi dəstəyi xüsusi vurğulayaraq, Azərbaycan Prezidenti İlham Əliyevin xalqa dekabrın 1-də etdiyi müraciətindən sitat gətirib: “Mən müharibənin ilk günündən bu günə qədər - sentyabrın 27-dən dekabrın 1-nə qədər Azərbaycan xalqına dəfələrlə müraciətlər etmişəm, qələbə sevincini bölüşmüşəm, azad edilmiş şəhərlərimizin müjdəsini vermişəm. Özümü çox xoşbəxt adam hesab edirəm. Çünki bu Qələbə bizim ruhumuzu, əyilməz ruhumuzu göstərdi”. Cənab Prezidentin bu sözləri ölkədə yaşanan milli birlikdən xəbər verir. Əldə olunan Qələbə isə həmin birliyi əbədi edəcək.

Aparılmış söhbətlər zamanı milli və siyasi birliyin əhəmiyyətini vurğulayan Ə.Vəliyev bildirib ki, Azərbaycanın hər bir vətəndaşı mövcud həmrəyliyin qorunmasına öz töhfəsini verməlidir. Bu mənada müharibədən sonrakı dövrdə ölkəmizə qarşı mümkün informasiya təzyiqləri ilə mübarizədə qalib gəlmək üçün Azərbaycanda fəaliyyət göstərən bütün siyasi partiyalar həmrəylik nümayiş etdirərək öz potensialını səfərbər etməlidir.

Ölkənin siyasi fəalları ilə təşkil olunan görüşlər çərçivəsində son bir il ərzində görülmüş işlər haqqında məlumat verən Ə.Vəliyev qeyd edib ki, siyasi partiyalarla əməkdaşlıq fəaliyyətin əsas istiqamətlərindəndir. Məhz bu əməkdaşlığın genişlənməsi və şaxələnməsi nəticəsində siyasi proseslərin iştirakçıları arasında etibarlı münasibətlərin qurulması mümkün olub.

Müzakirələr zamanı İqbal Ağazadə, Mirmahmud Fəttayev, Sərdar Cəlaloğlu, İlqar Məmmədov və Hafiz Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dövlətimizin inkişafı və beynəlxalq nüfuzunun artmasına yönəlmiş siyasətinə daim dəstək göstərəcəklərini və konstruktiv əməkdaşlığa hazır olduqlarını bildiriblər.

Görüşlərdə iştirak edən siyasi partiyaların rəhbərləri “Zəfər Günü”, “Anım Günü”, həmçinin Vətən müharibəsində Qələbə ilə bağlı müvafiq orden və medalların təsis olunması, habelə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması barədə Prezidentin qərarlarını yüksək qiymətləndirib və bu ali təşəbbüslərin bilavasitə milli birliyə xidmət etdiyini vurğulayıblar.

Görüşə görə təşəkkürlərini bildirən partiya rəhbərləri dövlətçiliyimizin, iqtidar-müxalifət arasında dialoqun və demokratik ənənələrin inkişafına xidmət edən bütün təşəbbüslərə hər zaman dəstək olacaqlarını söyləyiblər.

# Milli Məclisin Regional məsələlər komitəsinin onlayn iclası keçirilib

Dekabrın 14-də Milli Məclisin Regional məsələlər komitəsinin onlayn formatda iclası keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, komitənin sədri Siyavuş Novruzov gündəliyə 2 məsələnin daxil edildiyini diqqətə çatdırıb.

Siyavuş Novruzov əvvəlcə “Azərbaycan Respublikasının Şamaxı rayonunun Saqiyan kəndinin Günəşli kəndi adlandırılması haqqında” qanun layihəsini təqdim edib. Komitə sədri qeyd edib ki, işğaldan azad edilmiş bir sıra ərazilərimizdə kənd və rayon adlarının dəyişdirilməsi prosesinə Prezident İlham Əliyevin təşəbbüsü ilə artıq başlanılıb. Şamaxı rayonu sərhəd təmas xəttindən kənarda yerləşməsinə baxmayaraq, inzibati ərazisindəki Saqiyan kəndinin adı Azərbaycan etnosu, milli-irsi dəyərləri, xalqımızın tarixi, coğrafiyası, yerli əhalinin məişəti ilə heç bir bağlılıq daşımır. Mənfur qonşularımız tərəfindən bəzən belə məkanların adları müxtəlif məkrli məqsədlərə yozulur, “xülyalarını” dünya ictimaiyyətinə çatdırmaqda vasitə kimi istifadə edilir. Komitə sədri Toponimiya Komissiyası ilə müvafiq məsləhətləşmələr aparıldıqdan sonra, sakinlərin də istəyinə uyğun olaraq, coğrafi ərazi baxımından güney ərazidə yerləşən kəndin Günəşli adlandırılmasının məqsədəuyğun hesab edildiyini diqqətə çatdırıb. Bildirilib ki, Günəşli sözü, həm də xoşbəxt, sevinc dolu, fərəhli və işıqlı mənalarını özündə əks etdirir.



Siyavuş Novruzov gündəlikdəki ikinci məsələnin - “Bələdiyyələrin əraziləri və torpaqları haqqında” qanuna əlavə edilmiş “Azərbaycan Respublikasında Bələdiyyələrin Siyahısı”nda dəyişiklik edilməsi barədə sənədin də bununla bağlı olduğunu, bələdiyyə siyahılarında Şamaxı rayonu Saqiyan bələdiyyəsinin Günəşli bələdiyyəsi ilə əvəz edilməsinin nəzərdə tutulduğunu vurğulayıb.

Onlayn toplantıda Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, komitə üzvləri Kamran Bayramov, Aqil Məmmədov, Səttar Möhbalıyev, Məzahir Əfəndiyev müzakirə edilən məsələlərlə bağlı fikirlərini bildiriblər. İşğaldan azad olunmuş ərazilərimizdə bələdiyyələrin formalaşması, sürətli məskunlaşmanın və torpaq islahatı prosesinin həyata keçirilməsi, yeni ərazi vahidlərinin yaradılması, bu ərazilərdə yerli idarəetmənin səmərəli fəaliyyəti barədə söhbət aparılıb. Belə məsələlərin həyata keçirilməsində dövlət mexanizmləri və dünya təcrübəsi barədə danışılıb.

# Güc yolu ilə bərpa olunan ədalət

*Əvvəli 1-ci səh.*

Elə buna görə də dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan və ABŞ-dan olan həmsədrlərini qəbul edən Prezident İlham Əliyev Azərbaycanın 30 ilə yaxın davam edən münaqişəni güc yolu ilə həll etdiyini və Minsk qrupunun 28 il ərzində problemin həllində heç bir rol oynamadığını birbaşa onların özlərinin diqqətinə çatdırdı: *“Təəssüflər olsun ki, Minsk qrupu münaqişənin həllində heç bir rol oynamayıb. Halbuki bunu etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Mən son 17 il ərzində danışıqlarda iştirak etmişdim. Lakin müharibə zamanı dediyim kimi, Minsk qrupunun ideyalarla çıxış etmək və yaradıcı olmaq istiqamətində müəyyən fəaliyyəti olsa da, bunlar heç bir nəticə verməmişdir. Reallıq bundan ibarətdir”.*

## BMT qətnamələrinin yerinə yetirilməsi işğalçıdan tələb edilmədi

BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal edildiyini konkret formada sübut edən beynəlxalq hüquqi sənədlərdir. Bu sənədlərin qəbul edilməsinin lehinə səs verənlər həm də danışıqlar prosesində ATƏT-in Minsk qrupuna həmsədrlik edən dövlətlərdir. Amma onlar heç vaxt BMT qətnamələrinin yerinə yetirilməsini işğalçıdan tələb etmədilər. Baxmayaraq ki, son onilliklərdə bəzi dövlətlərə qarşı beynəlxalq sankisiyalardan və hətta güc amilindən istifadəyə dair çoxsaylı hadisələr var.

Bir neçə il əvvəl isə Minsk qrupunun həmsədri olan ölkələrin prezidentləri birgə bəyannamə ilə çıxış edərək, status-kvonun qəbuledilməz olduğunu bildirmişdilər. Bu bəyanat Azərbaycanla münaqişənin həlli ilə bağlı ümidlər yaratmışdı. Lakin bir müddət sonra bu mövqe də dəyişdi, status-kvonun qəbuledilməz olması barədə bir daha danışılmadı və ortaya qoyulan mövqe yalnız status-kvonun qorunmasına xidmət etdi.

Ermənistana qarşı təzyiqlərin olmaması isə onun özünü cəzasızlıq mühitində hiss etməsinə gətirib çıxardı. Bu ölkə beynəlxalq hüququ və mövcud qətnamələri ayaq altına ataraq öz qoşunlarını nəinki Azərbaycan ərazilərindən çıxardı, əksinə işğalı möhkəmləndirmək və Azərbaycan torpaqlarını ilhaq etmək xətti tutdu. Bunlar artıq keçmişdə qalsa da, tarixdir və ATƏT-in Minsk qrupu tərəfindən bu münaqişənin həll edilməməsi ədalətsizliyin, ikili standartların rəmzi kimi daim xatırlanacaq. “Problemin güc yolu ilə həlli yoxdur” deyənlərin indi özləri də qəbul edirlər ki, güc yolu ilə həlli varmış, sadəcə, onlar mövcud vəziyyəti olduğu kimi saxlamaq istəyirdilər. Nəhayət, gördülər ki, Azərbaycan özü Ermənistanı döyüş meydanında məğlub edərək kapitulyasiya hesab olunan bəyanatı imzalamağa məcbur etdi.

## İlham Əliyev: “Mən Minsk qrupunu səfərə dəvət etməmişəm”

Azərbaycan 30 ilə yaxın müddətdə ATƏT-in Minsk qrupunun həmsədrlərindən ədalətli mövqe sərgiləməyi, işğalçıya təsir və təzyiq, işğala son qoyulması üçün əməli fəaliyyət gözlədi. Amma bunların heç biri olmadı. Azərbaycan öz gücü hesabına problemi həll etdi və Minsk qrupunun həmsədrlərinin mandatının əsasını təşkil edən BMT TŞ qətnamələrinin tələblərini yerinə yetirdi.

Beləliklə, danışıqlar prosesinin prinsipləri tam təmin olundu, işğal olunmuş ərazilərdən təcavüzkar Ermənistanın qoşunları çıxarıldı. Bu gün Azərbaycanda heç kim ortaya ədalətli mövqe qoya bilməyən ATƏT-in Minsk qrupunu gözləmir, çünki, qeyd etdiyimiz kimi, onun mandatına daxil olan məsələni Azərbaycan güc yolu ilə yoluna qoydu. Elə buna görə də həmsədrləri qəbul edən Prezident İlham Əliyev onları Azərbaycana səfərə dəvət etmədiyini bildirdi: *“Mən Minsk qrupunu səfərə dəvət etməmişəm. Lakin mənə məlumat verəndə ki, Minsk qrupu gəlmək istəyir, dedim gəlsinlər, etiraz etmirəm. Bəlkə onların mənə sözləri var. Əgər siz bunu kamera qarşısında söyləmək istəyirsinizsə, buyurun. Əgər istəmirsinizsə, mən onlara deyim getsinlər. Necə istəsəniz”.*

Artıq status-kvo, Dağlıq Qarabağ münaqişəsi, Madrid prinsipləri kimi anlayışlar yoxdur. Bəs indi Azərbaycana gələn ATƏT-in Minsk qrupunun həmsədrləri hansı istiqamətdə fəaliyyət göstərə bilərlər? Bundan sonra həmsədrlər sadəcə olaraq regionda yeni reallığa uyğun olaraq xalqların sülhə hazırlanması, etimad quruculuğu, etnik barışığın təmin olunması, yol və kommunikasiya xətlərinin açılması kimi məsələlərlə məşğul ola bilərlər. Buna uyğun olaraq yeni fəaliyyət proqramı ortaya qoymalıdırlar. Bu yolla regionda davamlı sülhün təmin olunmasına töhfə verə bilərlər.

Amma fərdi olaraq, xüsusilə Fransa qərəzli mövqeyini kənara qoymalı və neytral tərəf olduğunu sübut etməlidir. Eyni zamanda Minsk qrupunun üzvü olan 11 dövlətin hamısı, o cümlədən Türkiyə bu prosesdə yaxından iştirak etməlidir. Hər hansı diskriminasiya və ya prosesin siyasi inhisara alınması baş verməməlidir.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Dövlət Təhlükəsizliyi Xidməti və Müdafiə Nazirliyinin məlumatı

Noyabrın 10-da Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentlərinin və Ermənistan baş nazirinin imzaladığı bəyanata əsasən, atəşkəsin elan olunmasından sonra Azərbaycanın Xocavənd rayonunun Hadrut qəsəbəsinin şimal-qərb hissəsində meşəlik ərazidə bəzi erməni silahlı birləşmələri qalıb.

Dövlət Təhlükəsizliyi Xidməti və Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın rəsmi dairələrinə istinadən erməni kütləvi informasiya vasitələrində sözügedən silahlı dəstələrin meşəlik ərazidə azmış vəziyyətdə olduğu barədə məlumat verilib. Onların ərazidən çıxarılması üçün Ermənistan tərəfi Rusiya Federasiyası Sülhməramlı Qüvvələrinin komandanlığına müraciət edib.

Azərbaycan tərəfi haqqında bəhs olunan erməni silahlı dəstələrinin ərazidən çıxarılması ilə bütün şəraiti təmin edib. Rusiya Sülhməramlı Qüvvələrinin hərbi qulluqçuları ağır hava şəraitində həmin əraziyə gələrək səs gücləndirici vasitələrlə meşəlik ərazidə olan erməni silahlı dəstələrinə müraciət edib və onların ərazidən təxliyəsi üçün zəruri tədbirlərin görüldüyü bildirilib.

Ümumiyyətlə, Rusiya Federasiyası Sülhməramlı Qüvvələri atəşkəs rejiminin qorunub saxlanması və “itkin düşmüş”, “azmış” olduğu iddia olunan erməni hərbçilərinin ərazidən təxliyəsi üçün məsuliyyətlə və yüksək peşəkarlıqla öz üzərinə düşən vəzifələri yerinə yetirib.

Həmin erməni silahlı dəstələri ərazini tərk etməyib, əksinə, döyüş mövqeləri yaradıb və son günlər qeyd olunan ərazidə Azərbaycan tərəfdən mülki xidmətləri həyata keçirən şəxslərə və hərbi qulluqçulara qarşı terror-təxribat və diversiya əməllərini törədiblər. Belə ki, noyabrın 26-da işğaldan azad olunmuş Xocavənd rayonunun Sur kəndində Müdafiə Nazirliyinin həmin ərazidə xidmət aparan hərbçilərinə ermənilərin qəfil hücumu nəticəsində 3 hərbi qulluqçumuz öldürülüb, 2 nəfər yaralanıb, dekabrın 8-də həmin rayonun Hadrut qəsəbəsi yaxınlığında rabitə qurğularının və ötürücü avadanlıqların quraşdırılması işlərinin aparılması zamanı 1 hərbi qulluqçu həlak olub və “Azercell” şirkətinin əməkdaşı ağır yaralanıb.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Xidməti həmin ərazidə antiterror əməliyyatı keçirmək məcburiyyətində qalıb.

Ermənistanın bəzi rəhbər şəxslərinin və erməni kütləvi informasiya vasitələrinin bu kimi hallara görə Rusiya Sülhməramlı Qüvvələrinə və Azərbaycan tərəfinə qarşı əsassız iddialar irəli sürməsi qəbuledilməzdir.

Ermənistan tərəfi üçtərəfli bəyanatın müddəalarının yerinə yetirilməsini təmin etməli, atəşkəs rejiminin qorunmasına və sülhün təmin olunmasına dəstək verməli, ərazidə qalmış erməni silahlı dəstələri və ya Ermənistan silahlı qüvvələrinin qalıqları vasitəsilə təxribatların törədilməsi, vəziyyətin qəsdən gərginləşdirilməsi və bu kimi halların ölkədaxili siyasi məqsədlər üçün istifadə edilməsi cəhdlərindən çəkinməlidir.

Azərbaycan Respublikası üçtərəfli bəyanatın müddəalarına sadiq olaraq, Rusiya Federasiyası Sülhməramlı Qüvvələri ilə sıx əlaqələndirmə və əməkdaşlıq şəraitində regionda sülhün təmin olunması üçün səylərini davam etdirir.

# Erməni hərbi qulluqçularının meyitləri və ermənilərə məxsus qəbir daşları üzərində təhqiredici hərəkətlərə yol verməkdə təqsirləndirilən dörd hərbi qulluqçu həbs edilib

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması və ərazi bütövlüyünün bərpası naminə aparılmış Vətən müharibəsində Azərbaycan Ordusunun hərbi qulluqçularının göstərdiyi şücaət, hərbi qulluq vəzifəsini yerinə yetirərkən nümayiş etdirdiyi mərdlik və peşəkarlıq tarixə qızıl hərflərlə həkk olunmuş zəfərin əldə edilməsinə səbəb olub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qarşıya qoyulmuş döyüş tapşırıqlarını yerinə yetirərkən göstərdikləri qəhrəmanlıq, hərbi qulluq vəzifəsini icra edərkən nümayiş etdirdikləri igidliyə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin çoxsaylı hərbi qulluqçuları Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə təltif ediliblər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev işğal olunmuş ərazilərin azad edilməsi üçün əks-hücum əməliyyatlarının başlanıldığı ilk gündən Ermənistan tərəfindən Azərbaycanın mülki əhalisinin hücuma məruz qalmasına baxmayaraq, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Azərbaycan Ordusuna yalnız döyüş meydanında düşmənin legitim hərbi hədəflərinə zərbələr endirmək, hərbi əsirlərə və mülki əhaliyə münasibətdə beynəlxalq humanitar hüququn norma və prinsiplərinə, o cümlədən Cenevrə Konvensiyalarının tələblərinə dönmədən əməl olunmasına dair tapşırıq verib. Ali Bas Komandanın göstərişlərini rəhbər tutan Azərbaycan Ordusunun əsgər və zabitləri torpaqlarımızın işğaldan azad edilməsi zamanı mülki əhali, o cümlədən qadın, uşaq və ahıl şəxslərə, əsir götürülmüş hərbçilərə, din xadimlərinə münasibətdə xalqımıza məxsus yüksək mədəniyyət və humanizm nümayiş etdirərək diqqət və qayğı ilə yanaşmış, bu münasibət həmin şəxslərin Beynəlxalq Qızıl Xaç Komitəsinin nümayəndələri ilə görüşləri, yerli və xarici kütləvi informasiya vasitələrinə müsahibələri vasitəsilə geniş işıqlandırılıb.

Təəssüf hissi ilə qeyd olunmalıdır ki, müharibənin törətdiyi ağır psixoloji durumun təsiri altında bəzi hərbi qulluqçular tərəfindən düşmənə qarşı mübarizənin metod və üsullarının dərk edilməsində yanılmalar Silahlı Qüvvələrin göstərdikləri rəşadət və əzmə, eləcə də əldə olunmuş qələbəyə kölgə sala biləcək qanunsuz hərəkətlər törədilməsinə gətirib çıxarıb.

Belə ki, bəzi kütləvi informasiya vasitələri və sosial media səhifələrində yayılmış Azərbaycanın hərbi qulluqçularının döyüş əməliyyatları zamanı həlak olmuş erməni hərbçilərinin meyitləri üzərində təhqiredici hərəkətlər etmələrini, habelə əsir götürülmüş erməni hərbçiləri ilə qeyri-insani rəftarını əks etdirən videogörüntülər Azərbaycan Respublikasının Baş Prokurorluğu və Hərbi Prokurorluq tərəfindən təhlil edilərək öyrənilib, bəzi videoçarxların saxta olması müəyyən edilsə də, bəzilərinin doğru olmasına və reallığı əks etdirməsinə ciddi şübhələr yaranıb.

Əvvəllər bu barədə mətbuata verilmiş məlumata əlavə olaraq bildiririk ki, qeyd edilən məlumatlarla bağlı toplanmış materiallar əsasında Hərbi Prokurorluq tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 115.2-ci (işgəncə vermə, onlarla qəddar və ya qeyri-insani rəftar etmə) və 245-ci (qəbir və ya meyit üzərində təhqiredici hərəkət) maddələri ilə cinayət işləri başlanaraq iş üzrə intensiv istintaq-əməliyyat tədbirləri həyata keçirilib.

İstintaqla Azərbaycan Respublikası Silahlı Qüvvələrinin “N” saylı hərbi hissəsində kiçik gizir kimi xidmət aparan Rəşad Əliyev və Qardaşxan Abışovun Zəngilan rayonu ərazisində döyüş əməliyyatları zamanı öldürülmüş erməni hərbi qulluqçularının meyitlərinin üzərində təhqiredici hərəkətlərə yol vermələrinə, etdikləri hərəkətləri smartfon tipli mobil telefonla videoqeydə alıb sosial şəbəkələr vasitəsilə digər şəxslərə göndərmələrinə əsaslı şübhələr müəyyən olunub.

Həmçinin istintaqla Azərbaycan Respublikası Silahlı Qüvvələrinin “N” saylı hərbi hissəsinin əsgərləri Arzu Hüseynov və Ümid Ağayevin Xocavənd rayonunun Mədətli kəndi ərazisində yerləşən qəbiristanlıqda ermənilərə məxsus qəbir daşlarını dağıtmaqla üzərlərində təhqiredici hərəkətlərə yol vermələrinə, etdikləri hərəkətləri smartfon tipli mobil telefonla videoqeydə alıb sosial şəbəkələr vasitəsilə digər şəxslərə göndərmələrinə şübhələr üçün əsaslar müəyyən olunub.

R.Əliyev, Q.Abışov, A.Hüseynov və Ü.Ağayev Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunmaqla barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda sosial mediada yayılmış digər videogörüntülərlə bağlı zəruri araşdırmalar aparılmaqla nəticəsi barədə ictimaiyyətə ətraflı məlumatın verilməsi təmin ediləcək.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bəyan edir ki, Azərbaycan Respublikasının hərbi qulluqçuları tərəfindən yuxarıda qeyd olunan cinayət əməllərinin törədilməsi yolverilməz olmaqla tolerant, multikultural dəyərləri üstün tutan, tarixən humanistliyi ilə seçilən Azərbaycan xalqının mentalitetinə ziddir. Oxşar xarakterli qanun pozuntularına yol vermiş şəxslər barəsində qanunla nəzərdə tutulmuş tədbirlər görülməklə məsuliyyətə cəlb edilmələri təmin ediləcək.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tövsiyələrinə uyğun olaraq, bu sahədə hüquq mühafizə orqanları tərəfindən qeyd olunan hüquq pozuntuları ilə bağlı ictimaiyyət məlumatlandırılmaqla cinayət işləri çərçivəsində istintaq araşdırmalarının aparılmasına dair açıq bəyanatlar verilməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələri tərəfindən 101 dinc sakinin öldürülməsi, 423 mülki şəxsin yaralanması, habelə Ermənistan hərbi qulluqçularının döyüş əməliyyatları zamanı həlak olmuş azərbaycanlı hərbçilərin meyitləri üzərində təhqiredici hərəkətlər etmələri, habelə əsir götürülmüş azərbaycanlı hərbçiləri ilə qeyri-insani rəftarı əks etdirən videogörüntülərlə bağlı təəssüf ki, Ermənistanın hüquq mühafizə orqanları, o cümlədən Baş Prokurorluğu tərəfindən hər hansı araşdırma aparılmamaqla tədbir görülməyib və açıqlama verilməyib.

Qeyd olunmalıdır ki, Azərbaycan Respublikası Prokurorluğu tərəfindən döyüş əməliyyatları zamanı həlak olmuş Azərbaycan hərbi qulluqçularının meyitləri üzərində təhqiredici hərəkətlər, əsir düşmüş azərbaycanlı hərbçiləri ilə qeyri-insani rəftarı əks etdirən videogörüntülər, mülki Azərbaycan vətəndaşlarının öldürülməsi və onlara xəsarət yetirilməsi ilə bağlı bütün cinayətlər üzrə zəruri və intensiv istintaq hərəkətləri aparılır. Baş Prokurorluq tərəfindən təqsirli şəxslərin müəyyən edilərək mövcud hüquqi mexanizm və beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsindən ötrü mümkün olan bütün tədbirlərin görülməsi təmin ediləcək.

Eyni zamanda Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistan hüquq mühafizə orqanlarını analoji addımlar atmaqla beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycan vətəndaşlarına qarşı törədilmiş cinayətlərlə bağlı ciddi hüquqi təsir tədbirləri görməyə, açıq və ədalətli araşdırma aparmağa və ictimaiyyəti məlumatlandırmağa çağırır.

# *Dövlət Komissiyası:* “Azərbaycanlı əsirlər və erməni girovluğunda saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərov Vətənə gətiriliblər”

Rusiya Federasiyasının Prezidenti, Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikası baş nazirinin imzaladıqları 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan, beynəlxalq humanitar hüquq normalarından irəli gələn öhdəliklərə və humanizm prinsiplərinə sadiq qalan Azərbaycan tərəfi müharibə vaxtı əsir götürülmüş erməni hərbçilərinin hüquqlarının təmin edilməsi istiqamətində üzərinə düşən vəzifələri ardıcıl olaraq yerinə yetirib. Əsir düşmüş ermənilər barədə məlumatlar müntəzəm Beynəlxalq Qızıl Xaç Komitəsi və Rusiya Sülhməramlı Qüvvələrinə təqdim olunub, birtərəfli qaydada onların bir hissəsi azad edilib. Azərbaycanda olduqları müddətdə həmin əsirlərə zəruri tibbi xidmət və ləyaqətli davranış göstərilib, onlara ailələri ilə əlaqə saxlamaq imkanı yaradılmış və digər hüquqları təmin olunub.



Azərbaycan Respublikasının Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a bildiriblər ki, müxtəlif səbəblərdən döyüşlər zamanı əsir düşmüş və ya girov götürülmüş Azərbaycan vətəndaşlarının Vətənə qaytarılması məsələlərini daim diqqət mərkəzində saxlayaraq Beynəlxalq Qızıl Xaç Komitəsi, Rusiya Sülhməramlı Qüvvələri və digər beynəlxalq təşkilatlarla tərəfimizdən fasiləsiz olaraq danışıqlar aparılmış və bütün mümkün başqa tədbirlər həyata keçirilib.

Beynəlxalq təşkilatların və Rusiya Sülhməramlı Qüvvələri komandanlığının iştirakı ilə aparılmış danışıqlar nəticəsində erməni tərəfi ilə əsir və girovların “hamının hamıya” prinsipi əsasında dəyişdirilməsi barədə razılıq əldə olunub və cari il dekabrın 14-də əsir və girovların qarşılıqlı qaytarılmasına başlanılıb. Günorta saatlarında Azərbaycan vətəndaşları olan əsir və girovların, o cümlədən 2014-cü ilin iyulundan erməni girovluğunda saxlanılan Şahbaz Quliyev və Dilqəm Əsgərovun təyyarə ilə Bakıya gətirilməsi təmin edilib. Müvafiq karantin tədbirləri həyata keçirildikdən sonra azad olunmuş şəxslər ailələrinə qovuşacaqlar.

Azərbaycan tərəfi bundan sonra da humanizm prinsiplərini rəhbər tutaraq əsirlərin, girovların və meyitlərin dəyişdirilməsi üçün üzərinə götürdüyü öhdəlikləri yerinə yetirəcək.

# Biz birlikdə güclüyük!

Əvvəli 1-ci səh.

Azərbaycan dövləti işğalçı Ermənistanla müharibədən qalib çıxdı. Bu Qələbənin əldə edilməsi üçün neçə-neçə igidimiz canından keçdi, şəhidlik zirvəsinə yüksəldi, qazilərimizin yaraları hələ tam sağalmayıb. Amma onu da unutmayaq ki, dövlətimiz əsgər itkilərinin mümkün qədər az olmasına çalışdı. Bunun üçün ordumuz ən müasir, böyük vəsaitlərə alınan silahlarla təchiz edilmişdir. Bu müharibə dünyanın hərb tarixinə misilsiz və bənzərsiz nümunə kimi həkk edildi.

İşğalçıya qarşı müharibə aparan Azərbaycan dövləti paralel olaraq taclı virusa yoluxan vətəndaşlarını taleyin ümidinə buraxmadı. Bu gün də epidemiyaya yoluxan bütün xəstələrin müalicəsi dövlətin diqqət mərkəzindədir.

Onu da qeyd edək ki, əksər dövlətlər taclı virusun epidemiyası qarşısında acizdir və insanların müalicəsini tam təşkil etməkdə ciddi çətinliklərlə üzləşir. Uzağa getməyək, elə şimal qonşumuz Rusiyanın paytaxtında xəstələrin müalicəsi nisbətən yaxşı təşkil edilsə də, Moskvadan əyalətlərə çəkildikcə problemlər artır, xəstəxanaların təchizatı çətinləşir, dərman preparatları çatışmır. Lipetskdə yaşayan həmyerlimiz deyir ki, yaxın qohumu kritik vəziyyətdən çıxmaq üçün bir neçə sistemin vurulmasına 300 dolları öz cibindən ödəmək məcburiyyətində qalıb. Belə nümunələr az deyil.

Bizdə necədir? Qubada yaşayan, 15 ildən çoxdur dializ xəstəsi olan Elnur Qasımovla danışırıq. Deyir ki, taclı virusa yoluxduğu aydın olan kimi onu təcili surətdə Qusar rayonuna gətirərək xəstəxanada taclı virus xəstələri üçün ayrılan xüsusi şöbəyə yerləşdiriblər. Dializ xəstələrinin immun sisteminin həddən ziyadə zəif olduğundan onların bu virusdan sağalması digər xəstələrə nisbətən qat-qat çətindir. Belə ki, daha çox dərman preparatları tələb olunur, daha mürəkkəb və bahalı müalicənin aparılması lazım gəlir. Elnur deyir ki, onun müalicəsi üçün vacib olan bütün tədbirlər görülüb, həkimlərin sayəsində səhhətində ağırlaşmalar baş verməyib və o, sağalmağa doğru gedir. Etiraf edir ki, müalicəsi ailəsinin öhdəsinə buraxılsaydı, bu məsrəfləri çəkmək onlar üçün o qədər də asan olmazdı. Elnur dövlətindən, eləcə də təmənnasız qayğısını çəkən həkimlərdən razıdır.

Qubanın Xucbala kəndinin sakini, sağalıb evinə dönən Seyfəddin müəllim isə yarızarafat-yarıgerçək deyir ki, vallah, xəstəxanada günlər necə keçdisə bilmədim, müalicə öz yerində, amma yeməyimiz-içməyimiz evdəkindən də yaxşı idi. Evdə xanım nə qədər çalışsa da, vaxtlı-vaxtında belə süfrə aça bilməz. Başı qarışar həyət-bacaya, mal-qaraya, yeməyimizi verincə mədəmiz nalə çəkər, Allah bilir.



# Evinizi taclı virusa qarşı möhkəm qalaya çevirin

## Epidemiyaya qalib gəlmək üçün vətəndaşlar dövlətə dayaq olmalıdırlar

Sözümüzün canı odur ki, Azərbaycanda nəinki paytaxtda, hətta ən ucqar bölgələrdə belə, taclı virusa yoluxanların hamısına yüksək səviyyədə qayğı göstərilir. Yəni dövlət epidemiyaya yoluxan bütün insanları, harada yaşamasından asılı olmayaraq, qayğı ilə əhatə edir.

İndiki vəziyyətdə hər birimizin borcudur ki, bu qayğını dəyərləndirək və özümüzü elə qoruyaq ki, dövlətimizin yükü azalsın. Lakin statistik rəqəmlər bizi xəbərdar edir ki, insanlar sağlamlıqlarına laqeyd yanaşsalar, yoluxanların sayı arta bilər. Ölkədə elə epidemik vəziyyət yarana bilər ki, dərman qıtlığı olar, çarpayıların sayı kəskin surətdə çatışmaya bilər.

Ona görə də bu məsələyə hər birimizin daha diqqətlə yanaşması, karantin qaydalarına daha dürüst əməl etməsi vacibdir. Əgər dövlətimizi seviriksə, bir-birimizin qayğısına qalmağa hazırıqsa, sadəcə, bir həqiqəti anlamalıyıq. Xəstələrin sayının azalması, ilk növbədə, sağlam insanların bu xəstəliyə yoluxmamasından asılıdır. Yəni biz özümüzü qoruduqca, qaydalara əməl etdikcə, yeni yoluxanların sayı azalacaq.

Bəs bunu necə etmək lazımdır? İlk növbədə evinizi taclı virusa qarşı yenilməz qalaya çevirin. Bu, çətin deyil. Qonaq getməyə can atmayın və çalışın ki, evinizə gəlib-gedənlərin də sayı az olsun. İndi hamının mobil telefonu var və sevdiyiniz insanlarla, qohum-qardaşla hətta görüntülü danışa bilərsiniz. Ad günlərini ixtisara salın, ziyafətləri və yubileyləri ləğv edin və kimsədən inciməyin ki, ailə bayramlarında qapınızı açmadı.

Mütəxəssislər vurğulayırlar ki, bir nəfər yoluxanda arxasınca ətrafdakıları, qohum-əqrəbasını da bu bəlaya salır. İndi Bakıda elə bir bina tapmaq olmaz ki, orada xəstə olmasın! Xəstələnib analiz verənlərin bir çoxunun taclı virusa yoluxduğu məlum olur. Elə həyətlər var ki, hər gecə oraya bir neçə dəfə təcili yardım maşını gəlir... Epidemiya kiçiyə, böyüyə baxmır.

Özümüzü diqqətlə qorusaq, dövlət bizə sərf olunacaq gücünü yaralı əsgərlərimizin sağlamlığına yönəldər. Odur ki, özümüzü qorumağa borcluyuq!

Yoluxanlara fikir verəndə aydın görünür ki, sağlam, immun sistemi güclü olanlar bu xəstəliyə tutulmur, yaxud onu yüngül keçirir. Ona görə də ailə sağlamlığı, immun sisteminin gücləndirilməsi günün ən vacib məsələsinə çevrilməlidir. Bu sahədə müəyyən biliklərə sahib olmaq və zəruri addımlar atmaq lazımdır. Hər kəs öz evini, ailəsini qorumalıdır. Sadəcə, çalışın düzgün qidalanın, vacib vitaminləri qəbul edin və sağlam həyat tərzinin sirlərinə yiyələnin, uşaqlarınıza da bunu öyrədin. Bu barədə internet resurslarında məlumatlar kifayət qədərdir. Oxuyun, öyrənin və əməl edin. Həyəcanlanmayın, bədbinliyə qapılmayın, sağlam, nikbin və gümrah yaşayın ki, bu düşmənə də qalib gələk!

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

## Koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradan Neftçala rayon sakini tutulub

Koronavirus infeksiyasının yayılmasının qarşının alınması məqsədilə ölkəmizdə elan olunan xüsusi karantin rejiminin müxtəlif yollarla pozulması hallarına qarşı prokurorluq orqanları tərəfindən kompleks və ardıcıl tədbirlər davam etdirilir.

Neftçala Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, rayon sakini 1995-ci il təvəllüdlü Qasımov Elşən Fərman oğlu COVID-19 virusu ilə bağlı verdiyi testin nəticəsinin pozitiv olmasını bilə-bilə xüsusi karantin rejiminə əməl edərək həmin müddəti evdə keçirməli olduğu halda, yaşadığı evi qanunsuz tərk etməklə epidemiya əleyhinə, eləcə də karantin rejimini kobud surətdə pozub yeni növ koronavirus infeksiyasının yayılması üçün real təhlükə yaradıb.

Faktla bağlı Neftçala Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanaraq istintaqın aparılması üçün aidiyyəti üzrə Neftçala rayon Polis Şöbəsinə göndərilib.

Hazırda iş üzrə zəruri istintaq hərəkətləri davam etdirilir.

## "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinə müraciət edən vətəndaşların nəzərinə!

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq Qərarı ilə ölkəmizdə 2020-ci il 14 dekabr saat 00:00-dan 2021-ci il 18 yanvar saat 00:00-dək sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilir.

asan xidmət

Həmin tarixlərdə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisində, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayon mərkəzlərində vətəndaşlara (kənd və qəsəbələr istisna olmaqla) hərəkət məhdudiyyəti qoyulub.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərinin iş saatlarında dəyişiklik edilib. Müvafiq dəyişikliyə əsasən, dekabrın 14-dən dekabrın 30-dək Bakı şəhərində yerləşən bütün "ASAN xidmət" və "ASAN Kommunal", həmçinin Sumqayıt və Gəncə regional "ASAN xidmət" mərkəzləri saat 18:00-dək, digər regional mərkəzlər isə 17:00-dək fəaliyyət göstərəcək.

Həmçinin xatırladaq ki, koronavirusa yoluxma dinamikasının azaldılması istiqamətindəki tədbirlər çərçivəsində 19-20, 26-27 dekabr tarixlərində bütün "ASAN xidmət" və "ASAN Kommunal" mərkəzlərində qeyri-iş günü olacaq.

# Sərt karantinin tətbiqi vətəndaşlarımızı qorumaq üçündür

Dünyada yeni növ koronavirusa yoluxma sayı sürətlə artmaqda davam edir və artıq bu rəqəm 70 milyonu ötüb, virusdan ölüm sayı isə 1 milyon yarımı keçib. Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da son zamanlar bu infeksiyaya yoluxma sayı kəskin artıb. Pandemiyanın bu mərhələsində virusa yoluxmanın yüksək həddi müxtəlif ölkələrdə yenidən sərt karantin tədbirlərinin tətbiq olunmasını şərtləndirib.






Buna görə də, Nazirlər Kabineti yanında Operativ Qərargah ölkəmizdəki epidemioloji vəziyyətin təhlilinə əsasən, bir sıra qərarlar qəbul edib. Azərbaycanda son aylarda yaşanan yüksək yoluxma səviyyəsi nəzərə alınaraq virusun yayılmasının qarşısının alınması məqsədilə ölkə ərazisində sərtləşdirilmiş karantin tədbirlərinin həyata keçirilməsinə qərar verilib.

Qərara əsasən, ölkə üzrə xüsusi karantin rejiminin müddəti gələn ilin 31 yanvarınadək uzadılıb. Eyni zamanda ötən gündən 2021-ci ilin yanvarın 18-dək bütün ölkə üzrə sərtləşdirilmiş xüsusi karantin rejimi tətbiq edilib.

Xüsusi karantin rejiminin sərtləşdirilməsindən irəli gələrək sözügedən tarixlərdə ölkənin bütün ərazisində Nazirlər Kabinetinin müvafiq qərarı ilə müəyyən edilmiş iş və xidmət sahələri istisna olmaqla, digər sahələrdə iş və xidmətlər dayandırılır. Bütün ticarət obyektlərinə, ictimai iaşə obyektlərinə, o cümlədən restoran, kafe və çay evlərinə müştərilərə yalnız çatdırma xidmətlərinin göstərilməsinə və ya onlayn satışa icazə veriləcək.

Ötən gündən yanvarın 18-dək operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, habelə yükdaşıyan avtomobillərin və Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin nəqliyyat vasitələrinin hərəkəti istisna olmaqla, Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisinə, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayonlarının mərkəzlərinə (kənd və qəsəbələr istisna olmaqla) giriş-çıxış dayandırılıb.

Eyni zamanda sözügedən şəhər və rayonların ərazisində hərəkət məhdudiyyəti tətbiq edilib. Nazirlər Kabinetinin qərarı əsasında müəyyən edilən siyahı üzrə müvafiq qurumlarda çalışan şəxslər xidməti vəsiqə əsasında, eyni zamanda qərarla müəyyən edilmiş digər təşkilatların və qurumların işçiləri onlar barədə məlumatlar işəgötürən tərəfindən elektron imzadan istifadə edilməklə "icaze.e-gov.az" portalına daxil edildikdən sonra yuxarıda qeyd olunan ərazilərdə hərəkətlərinə icazə verilir.

Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Şirvan şəhərlərinin və Abşeron rayonunun ərazisində, eləcə də Lənkəran, Masallı, Cəlilabad, Şəki, Zaqatala, Quba, Xaçmaz, Yevlax, Bərdə, Biləsuvar və İsmayıllı rayonlarının mərkəzlərində (kənd və qəsəbələr istisna olmaqla) bütün digər şəxslərin yaşayış yerini və olduğu yeri tərk etmələrinə SMS-icazə sistemi və ya Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə verilir.

Ərzaq və digər gündəlik tələbat mallarının və dərman vasitələrinin alınması, dövlət xidmətlərinin, bank, poçt fəaliyyətinin davam etdirilməsinə icazə verilən iş və xidmət sahələrində göstərilən digər xidmətlərdən istifadə edilməsi zərurəti, həmçinin açıq havada vaxtın keçirilməsi ilə əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün icazə 3 saat müddətinə gündə 1 dəfə verilir.

Yaxın qohumunun dəfnində iştirakla əlaqədar yaşayış yerini və olduğu yeri tərk etmək üçün isə hər bir şəxs Daxili İşlər Nazirliyinin Növbətçi Hissələri İdarəetmə Xidmətinin 102 Xidməti - Zəng Mərkəzi vasitəsilə icazə almalıdır.

Xatırladırıq ki, xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskalardan istifadə məcburi hesab olunur.

Artıq ötən gündən Bakı şəhərində karantin postları fəaliyyətə başlayıb. Şəhərin giriş-çıxışları ilə yanaşı, daxildəki avtomobil yollarında da postlar qurulub. Karantin postlarına Daxili İşlər Nazirliyi əməkdaşları cəlb edilib. Səhər saatlarından etibarən polislər və Daxili Qoşunların hərbi qulluqçuları vətəndaşların evdən çıxmaqla bağlı sms icazəsinin olub-olmamasını yoxlayır, yaşayış yerini tərk etmək icazəsi olmayan şəxslər barədə qanunvericiliyə uyğun tədbirlər görülür.

Karantin postları ilə yanaşı, şəhərin müxtəlif ərazilərində Daxili İşlər Nazirliyi əməkdaşlarından ibarət mobil postlar da fəaliyyət göstərir.

Qısa zamanda ölkəmizə koronavirus infeksiyasının qarşısının alınmasında effektiv vasitə olacaq peyvəndin yaxın günlərdə gətirilməsinə də başlanılacaq. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı bildirib ki, koronavirusa qarşı vaksinlərlə bağlı dünya üzrə vəziyyət ümidvericidir. Artıq Böyük Britaniyada əhalinin bir qismi vaksinasiyadan keçib. Azərbaycan hökuməti də bu istiqamətdə bir neçə ölkə ilə danışıqlar aparır və qısa zamanda peyvəndin gətirilməsinə başlanılacaq.

H.Harmancı onu da qeyd edib ki, peyvəndin əldə olunması xəstəliyin tam şəkildə aradan qaldırılması anlamına gəlmir: "Peyvəndin olması çox yaxşı haldır. Bu, o deməkdir ki, artıq "işıq görünür". Lakin unutmayaq ki, peyvəndin ölkəyə gətirilməsi ilə xəstəlik bitməyəcək. Əhalinin peyvənd olunması prosesi uzun bir zaman tələb edir. Bu baxımdan qorunma tədbirlərinə riayət edilməsi vacibdir".

Operativ Qərargah da virusun geniş yayılmasının qarşısının alınması məqsədilə hamını dövlət tərəfindən görülən tədbirlərə dəstək göstərməyə, özünün və ailə üzvlərinin sağlamlığı naminə COVID-19 virusu ilə mübarizədə karantin tələblərinə ciddi riayət etməyə çağırır.

Hazırkı dövrdə ciddi zərurət yaranmadıqda ictimai yerlərdə olmamaq, digər şəxslərlə yaxın təmaslardan yayınmaq, qapalı və açıq məkanlarda sosial məsafəyə əməl etmək, tibbi maska və digər qoruyucu vasitələrdən ictifadə etmək zəruridir. Bildirilir ki, xəstəliyin ilkin əlamətlərini hiss etdikdə özünütəcrid tələblərinə ciddi riayət etmək, zəruri müalicə tədbirlərinin həyata keçirilməsi olduqca önəmlidir.

Göründüyü kimi, Azərbaycan dövləti vətəndaşlarının sağlamlığının etibarlı müdafiəsi üçün sanitar vəziyyətə uyğun addımlar atır. Buna görə də dövlətin virusun qarşısının alınması istiqamətində atdığı addımlara, pandemiyanın sadə tələblərinə əməl edərək bu mübarizəyə töhfə verməliyik: maskadan düzgün istifadə etməli, sosial məsafəni qorumalı, əl gigiyenasına əməl etməli, kütləvi toplanma yerlərindən uzaq durmalıyıq.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***




# Xudavəng abidəsi də vandalların əsarətindən xilas oldu

*Əvvəli 1-ci səh.*

Dağıdılmış abidələr, infrastruktur obyektləri, yandırılmış evlər, kəsilmiş ağaclar... düşmənin vəhşi və faşist xislətini göstərir.

44 günlük Vətən müharibəsində müzəffər Ordumuzun çaldığı Qələbə ilə Kəlbəcər də noyabrın 25-də erməni vandallarının əsarətindən xilas edildi. Təbii ki, dövlət başçısının qeyd etdiyi kimi, işğaldan azad edilən bütün ərazilərimiz bərpa ediləcək və məcburi köçkünlər doğma torpaqlarına qayıdaraq firavan yaşayacaqlar, o cümlədən də kəlbəcərlilər.

Azərbaycanın ikinci Qobustanı adlandırılan Kəlbəcər, sözün həqiqi mənasında, təbiət muzeyini xatırladır. İnsanın burada təşəkkül tapması dördüncü geoloji dövrlə bağlıdır. Qədim daş dövrünün məşhur Zar mağarası, arxeoloji abidələri ilə zəngin olan Qaragöl, Zalxagöl, Sultanheydər, Pəriçınqılı, Ayıçınqılı, Taxtadüzü, Qurbağalıçay və.s. yaylaqlarının qaya təsvirləri, eramızdan əvvəl III minilliyə aid yaşayış yeri Kəlbəcərin zəngin maddi mədəniyyət abidələrinin bir hissəsidir. 1968-ci ildən buradakı qaya təsvirləri öyrənilməyə başlanılmışdır.

Ermənistanın işğal etdiyi Kəlbəcər rayonu ərazisində də minilliklərin yadigarları az deyildi. Həmin tarixi, dini məbədlərdən biri də Tərtər çayının sol sahilində yerləşən, xalq arasında "Xotavəng" və ya "Xudavəng", yəni "Tanrı məbədi" adlandırılan kompleks Qafqaz Albaniyası dağıldıqdan sonra (IX əsrdə) Qarabağın dağlıq hissəsində yaranmış Xaçın Alban knyazlığının dini mərkəzi olub. Kompleksdə alban yepiskopunun iqamətgahı olmuş və dini maarif mərkəzi fəaliyyət göstərmişdir.

Əsaslı mənbələrdən görünür ki, XIII əsrdə Mehranilər sülaləsindən olan Xaçın knyazı Böyük Həsənin oğlu Bəhramın ailəsi tərəfindən monastır yenilənib və orada əlavə tikililər inşa edilib.

Xatırladaq ki, ermənilər Kəlbəcərdə 1993-cü ildən bəri qeyri-qanuni məskunlaşdıqları müddətdə bu məbədi özlərininkiləşdirməyə çalışmış, hətta dünyaya "arsax"ın dini mədəniyyət mərkəzi kimi təqdim etmişlər.

Kəlbəcər işğaldan azad edildiyi üçün dekabrın 4-də Alban (Qafqaz) Apostol Müstəqil Kilsəsinin varisi olan Azərbaycan Alban-udi dini icmasının nümayəndələri Xudavəng monastır kompleksini ziyarət etdilər. İllərdir bütün dinlərin nümayəndələri üçün bərabər şəraitin yaradıldığı Azərbaycanda firavan yaşayan udilər Alban Apostol Kilsəsinin mənəvi varisləri olaraq Qəbələ və Oğuzdakı alban məbədlərində olduğu kimi, işğal altındakı Alban kilsələrində, o cümlədən Kəlbəcərdəki Xudavəng monastır kompleksində də ibadət edəcəkləri günləri səbirsizliklə gözləyirdilər.

Anım mərasimi başa çatdıqdan sonra icmanın sədri Robert Mobili bildirdi ki, Xudavəng məbədi həm tarixən, həm də me-



marlıq üslubu baxımından tamamilə Alban Apostol Kilsəsinə məxsusdur. Ermənilərin burada etdiyi saxtakarlıqlar açıq şəkildə görünür. Azərbaycanda müxtəlif dinlərin nümayəndələri üçün bərabər şəraitin yaradıldığını, ölkəmizdə bütün dini məbədlərin, o cümlədən kilsə, sinaqoq və məscidlərin əsaslı şəkildə təmir olunduğunu diqqətə çatdırıldı. Vətən müharibəsi günlərində Qəbələnin Nic qəsəbəsində Müqəddəs Məryəm kilsəsinin bərpasını əks etdirən fotoların Xudavəng monastırında göstərildiyini də qeyd edən icma sədri onu da bildirdi ki, işğaldan azad olunan ərazilərimizdəki dini məbədlərimiz də bərpa ediləcək və dindarların istifadəsinə veriləcək.

Tarixi Qafqaz Albaniyasının məbəd və digər mədəni irs nümunələri erməni kitablarında təəssüf ki, əsassız olaraq "qədim erməni" mədəni irsi, erməni kilsəsinin tərkib hissəsi kimi qələmə verilir. Kəlbəcər rayonu işğal edildikdən sonra Xudavəng monastırında da qanunsuz bərpa işləri aparılıb. Bərpa adı ilə pərdələnən saxtalaşdırma işləri Erməni Apostol Kilsəsinin nəzarəti altında 1997-2011-ci illərdə - 14 il davam etdirilib.

Xatırladaq ki, Kəlbəcər rayonunda dövlət qeydiyyatına alınmış 35 Alban məbədi olub. Onların hamısı da Ermənistan tərəfindən saxtalaşdırılıb və ya dağıdılıb. Yəni Alban kilsələrinin memarlıq üslubu, həmçinin onlara aid simvol və elementlər erməni saxtakarlığına məruz qalıb. Qədim Şərq kilsələrindən olan Alban müstəqil kilsələri həm memarlıq üslubuna, həm də xaçın formasına, ibadət dilinə, liturgiyasına görə erməni kilsələrindən tamamilə fərqlənir. Bununla yanaşı, fərqli əlifba, tamam özgə dildə olan müqəddəs kitablar və apostol xətti də Alban kilsələri ilə erməninkiləri arasındakı fərqləri açıq-aydın nümayiş etdirir.

Arxeoloji tədqiqatlardan məlumdur ki, məbəd kompleksinin əsası VI-VII əsrlərdə qoyulmuşdur. Mehranilər sülaləsindən olan Xaçın knyazı Həsən Cəlalın oğlu Vaxtanq kompleksin ərazisində geniş tikinti işləri aparmış, Arzu xatun isə 1214-cü ildə əri Vaxtanqın və iki oğlunun xatirəsinə kompleksdə kilsə tikdirmişdir. Kilsənin şərq fasadında daş üzərində knyaz Vaxtanqın, cənubunda isə Arzu xatunun iki oğlunun təsvirləri həkk olunmuşdur.

Alban knyazı tərəfindən inşa edilmiş baş kilsə memarlıq xüsusiyyətlərinə görə erməni və gürcü xalqlarının kilsələrindən tamamilə fərqlənir.

Bütün bunlardan sonra deyə bilərik ki, Kəlbəcər rayonunun Vəng kəndi ərazisində, Tərtərçayın sol sahilində yerləşən Xudavəng və ya Dədəvəng kompleksi Azərbaycanın xristian memarlığının ən iri və gözəl abidələrindən biridir.

Bəzi araşdırmalara görə, Qafqazda ilk xristian missioneri olmuş apostol Faddey-Dədə bu kompleksdə dəfn olunmuşdur. Ona görə Xudavəng kompleksinin təməlinin IV əsrdə qoyulduğu ehtimal olunur.

Kompleksdə əsas inşaat işləri XIII əsrdə Alban knyazı Vaxtanqın zamanında aparılmışdır. Monastır kompleksinin tərkibində indi iyirmidən çox tikili və tikili qalıqları var. Kilsənin qərb və şimal baştağları daş üzərində incə oyma naxışlarla bəzədilib. Kompleksin əsas dini hissəsi plan və kompozisiyası ilə fərqlənən bir-birinə bitişik 7 həcmdən ibarətdir.

Kompleksin əsas binası Böyük Həsən kilsəsidir. Dini binalardan cənubda isə, yamacda mülki tikililər, eləcə də saray, yaşayış və təsərrüfat binaları yerləşir. Kompleksə daxil olan binalar çoxəsrlik inşaat mədəniyyətini, orta əsr Azərbaycan xristian memarlığının müxtəlif tiplərini dolğun nümayiş etdirir. Xudavəng məbəd kompleksində çoxlu inşaat kitabələri və yazılar qalmışdır. Onlarda göstərilən bir sıra adlar: Arzu xatun, Tursun, Seyti, Hasan, Avaq, Şəms, Altun, Ağbux, Qaragöz və s. bu abidəni ucaldanların etnik mənsubiyyətinin türklüyünün dəqiq göstəricilərindəndir. Bu abidənin çoxsaylı oyma daş bəzəklərində Azərbaycanın müsəlman memarlığı ilə birbaşa bağlılıq da aydınca hiss olunur.

Erməni işğalçıları Kəlbəcəri boşaltmağa məcbur olanda kompleksi də dağıtmağa çalışaraq, içərisindəki tarixi, dini əşyaları da özləri ilə aparmaq istədikləri müşahidə edildi. Bu isə vandallığın, barbarlığın daha bir formasıdır.

Əslində, bu hərəkətləri ilə ermənilər bir daha heç bir tarixə, dinə, mədəniyyətə mənsub olmadıqlarını təsdiqləyiblər. 30 ilə yaxındır ki, yaşadıqları Kəlbəcər rayonu ərazisindən çıxarılarkən ermənilərin törətdiyi vəhşilik isə heç bir meyarla ölçüyə gəlməzdir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

## *Azərbaycan XİN:* "Ermənistanı üçtərəfli bəyanatın tələblərinə ciddi riayət etməyə və destruktiv fəaliyyətdən çəkinməyə çağırırıq"

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi işğaldan azad olunmuş ərazilərimizdə qalan erməni silahlı birləşmələrinin terror və diversiya əməlləri ilə bağlı məlumat yayıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a daxil olan məlumatda son günlər ərzində Azərbaycanın Xocavənd rayonunun Hadrut qəsəbəsi ətrafındakı meşəlik ərazidə qalan erməni silahlı birləşmələrinin terror və diversiya əməllərinə qarşı Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən antiterror əməliyyatı həyata keçirilir.

Sözügedən ərazilər uzun illər davam edən erməni işğalından Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən bu yaxınlarda azad olunub.

Məsələ ilə bağlı Azərbaycanın Dövlət Təhlükəsizliyi Xidmətinin və Müdafiə Nazirliyinin cari ilin 13 dekabr tarixli birgə açıqlamasında ətraflı məlumat verilib.

Rəsmi Yerevanın Azərbaycanın ünvanına iddiaları əsassızdır və qəbuledilməzdir. Belə ki, təxribat fəaliyyəti erməni silahlı birləşmələrinin qalıqları tərəfindən törədilib. Öz növbəsində, Azərbaycan hökuməti və Rusiya Federasiyasının sülhməramlı heyəti 10 noyabr tarixli üçtərəfli bəyanatın müddəaları əsasında sülhün qorunub saxlanılması üçün bütün lazımi tədbirləri görürlər.

Xatırlatmaq istərdik ki, böyük səylər nəticəsində qəbul olunmuş bəyanat tam atəşkəsi və bütün hərbi əməliyyatların dayandırılmasını nəzərdə tutur. Ermənistanı üçtərəfli bəyanatın tələblərinə ciddi riayət etməyə və bundan sonra onun icrasına əngəl törədən destruktiv fəaliyyətdən çəkinməyə çağırırıq.

Azərbaycan Rusiya sülhməramlıları ilə birgə əməkdaşlıq çərçivəsində fəaliyyət göstərərək, bölgədə sülh və təhlükəsizliyin təmin olunması üçün müvafiq tədbirləri həyata keçirəcək.



# Hərbi məğlubiyyət, siyasi xaos və sosial-iqtisadi iflas



## Azərbaycanın Vətən müharibəsindəki qələbəsi Ermənistana məhvedici zərbə oldu

**Sentyabrın 27-də başlayan və 44 gün davam edən müharibənin nəticələri Ermənistana həm hərbi, həm siyasi, həm də sosial-iqtisadi müstəvidə böyük zərbə vurdu. Müharibənin ilk günlərindən məlum oldu ki, cəbhədəki döyüşlər Ermənistana baha başa gəlməkdədir. Hər keçən gün işğalçı dövlətə hərbi, siyasi-diplomatik və iqtisadi müstəvidə böyük zərbələr dəydi.**

Məğlubiyyət fonunda erməni ictimaiyyəti, müxalifəti, sosial şəbəkə istifadəçiləri Paşinyandan hesab sormağa başladılar. Müharibədə və ondan sonrakı müddətdə erməni mediasında hazırlanan reportajlardan, sosial şəbəkələrdəki paylaşımlardan ən diqqət çəkənlərini növbəti dəfə diqqətinizə çatdırırıq.

### Soyuq zirzəmilər, zülmət gecələr və böyük qorxu

Müharibənin ilk günlərində erməni tərəfindən həm canlı, həm də hərbi texnika itkisi həddindən artıq böyük idi. Döyüşlərdə Ermənistan ordusunun mindən çox əsgərinin öldürüldüyünü diqqətə çatdıran erməni mediası yazırdı ki, Şuşa hospitalına yüzlərlə yaralı gətirilib. Bildirilirdi ki, öldürülənlər arasında əsgərlərlə yanaşı, kiçik və böyük rütbəli zabitlər də var. Avtomobillər, ağır zirehli texnika, artilleriya qurğuları məhv edilib. Qeyri-rəsmi məlumatlara görə, yüzlərlə hərbi texnika sıradan çıxıb.

"Sputnik Armeniya" saytının Xankəndidən hazırladığı reportajda insanların vahimə içərisində olduğu yazılırdı. Qeyd olunurdu ki, Xankəndi sakinləri Qarabağ münaqişəsi zonasında vəziyyət gərginləşdikdən sonra gecəni zirzəmilərdə keçirirlər. Hətta Xankəndidəki məktəblərdən birinin müəllimi Qayane Muradyan sosial şəbəkədəki paylaşımlardan birində deyib ki, Azərbaycan tərəfinin endirdiyi zərbələr onları qorxuya salıb: "Çox narahatıq. Başqa heç bir şey haqqında düşünə bilmirik. Ön cəbhədəki qohumlarımız vəziyyətin olduqca gərgin olduğunu, hər gün əsgərlərimizin öldürüldüyünü deyirlər. Bütün bunlar bizim psixikamıza təsir göstərir".

Baş verənlərlə bağlı "4rd.am" saytının hazırladığı reportajda bildirilirdi ki, Ermənistan hospitalları yaralılarla doludur: "Dərmanlar çatışmır, nəqliyyat vasitələri yaralıları daşımaq üçün azlıq edir. Yaralıların gətirildiyi Yerevanda bir qadın hönkür-hönkür ağlayırdı. O, "Nə üçün?" deyə soruşur və "cəhənnəm olsun bu quldurlar, oğrular, mənim oğlumu öldürdülər" - deyə qışqırırdı. Sonradan bəlli oldu ki, o, Azərbaycanı deyil, Paşinyan hakimiyyətini nəzərdə tuturdu. Mən ağlayan qadından artıq heç nə soruşa bilmədim. O, elə hey, "Heyvanlar, əclaflar mənim oğlumu öldürdülər" - deyə qışqırırdı".

Reportajı hazırlayan erməni jurnalist həmin qadının Ruzanna Kirokasyan adlı rəfiqəsindən baş verənlər haqda soruşur: "Rəfiqəsi deyir ki, onun oğlu bazar günü günorta saatlarında yaralanıb. Onu Yerevana hospitala gətiriblər. Hər şey yaxşı imiş, amma dərmanın yoxluğuna və həkimlərin səhlənkarlığına görə oğlu ölüb".

Müharibənin ikinci həftəsində artıq Ermənistan tərəfi cəbhədə davam edən hərbi əməliyyatlar fonunda daha Azərbaycan torpaqlarında qala bilməyəcəklərini başa düşərək şələ-küləlrini yığışdıraraq oranı birdəfəlik tərk etməyə hazırlaşırdılar. Bununla bağlı "Joxovurd" qəzeti yazırdı ki, cəbhə zonasında davam edən döyüşlərdən qaçan ermənilər atəşin dayandırılmasından sonra da geri qayıtmaq istəmirlər. Xankəndi sakini Artak Allahverdiyan deyir ki, o, tezliklə Rusiyaya getmək niyyətindədir: "Ümidimiz Rusiyadır. İnanıram ki, oradakı qardaşlarımız bizi qəbul edəcək, tək qoymayacaqlar".





Müharibənin son 10 günlüyündə isə erməni mediası Paşinyanın artıq istefa verməsinin məcburiyyət olduğunu yazmağa başladı. "Armenianweekly.com" saytı yazırdı ki, cəbhədə gedən döyüşlərdəki ilkin nəticələr onu deməyə əsas verir ki, Ermənistanın baş naziri Nikol Paşinyan baş verənlərdən sonra istefa verməyə məcburdur: "Ordumuz ağır məğlubiyyət almaqda davam edir və rəqib uzun illərdir möhkəmləndiyimiz strateji əhəmiyyətli yüksəklikləri, kəndləri tutdu. Bizi aldatmağa davam edirlər ki, strateji əhəmiyyətli yüksəkliklər bizdədir. İtkilərin həqiqi sayını gizlədirlər, hərçənd həqiqəti gizlətmək mümkün deyil. Azərbaycan tərəfi aşağı-yuxarı rəqəmləri açıqlayıb. Xüsusən rəhbərlik bizi həmişə inandırırdı ki, rəqibin təhdidləri boş sözlərdir. Onlar bizi aldadırdılar ki, Rusiya Azərbaycanın açıq hücumlarına imkan verməyəcək. Amma hər şey tamam fərqli oldu".

"Qrapark" qəzetinin Xankəndiyə ezam olunmuş müxbiri yazırdı ki, əhali müharibənin onlara böyük fəlakətlər gətirəcəyini yaxşı bilirdi: "Bir həftədir Stepanakertdəyik (Xankəndi-red.) Gecələr zülməti yaşayırıq, soyuq zirzəmilər insanlarla doludur. Şəhərdə işıq yoxdur. Baş verənlərdən erməni əsgər anaları çox narahatdırlar. Onlar Paşinyanın övladlarını ölümdən qurtaracağını gözləsələr də, bunun əksi baş verdi. Paşinyan Azərbaycanla müharibənin acı nəticələrini hesablaya bilməyib. O dərk etməlidir ki, erməni cəmiyyəti müharibədən bezib. Oğulları özgə torpaqlarda ölən erməni əsgər analarının naləsi Stepanakerti bürüyüb. Paşinyana, Araik Arutyunyana nifrət artır. Erməni ordusunda özbaşınalıq hökm sürür, döyüş ruhu aşağı düşüb və yeni nəsil mənasız müharibədə vuruşub ölmək istəmir".

### Orduda ümid ahıllara və qadınlara idi

44 günlük müharibə dövründə Azərbaycan Ordusu cəbhədə gündən-günə düşmənə getdikcə daha ağır zərbələr vururdu. Düşmənin hərbi-texniki potensialı əhəmiyyətli dərəcədə sıradan çıxarılmışdı. Eyni zamanda Ermənistan canlı qüvvə sarıdan da ciddi korluq çəkirdi. Ermənistanın Qarabağdakı ordusunun şəxsi heyətinin və xaricdən gələn muzdluların böyük qismi ordumuz tərəfindən məhv edilmişdi. Bu səbəbdən Ermənistan artıq 60-70 yaşlı qocaları döyüşə göndərməyə başlamışdı.

Ermənistan hərbi birləşmələrində canlı qüvvə ilə bağlı yaranan problemin kökündə təkcə Azərbaycanla döyüşdə olan itkilər dayanmırdı. Bunun bir səbəbi də odur ki, minlərlə erməni ordu sıralarında xidmətdən boyun qaçırırdı. Erməni gəncləri illərdir ki, hərbi xidmətdən yayınmaq üçün ölkəni tərk edirlər və bu proses müharibə günlərində daha da intensivləşmişdi. Hökumətin səfərbərlik barədə qərarına baxmayaraq, müxtəlif bəhanələrlə çağırışçı yaşında olan ermənilər xidmətdən yayınır, qalanları isə ölkəni tərk edirdilər. Bu səbəbdən Ermənistanda yaşlıların orduya cəlb edilməsi daha da sürətlənmişdi. İşğalçı ölkədə bunu yaşlıların təcrübələrinin çox olması səbəbindən könüllü şəkildə ordu sıralarına qoşulması kimi təbliğ edirlər. Amma təcrübə göstərir ki, yaşlı insanlar fiziki göstəricilərinin və çevikliyin aşağı olması səbəbindən elə döyüşə gəldiyi ilk andan həyatla vidalaşırdılar.

Fransanın "Liberation" qəzeti yazmışdı ki, Ermənistan ordusunda əsgər çatışmazlığı yaşanır. Buna görə hətta Fransada yaşayan erməni əsilli qocaları da Qarabağda döyüşməyə razı salmaq üçün iş aparılırdı. Qəzet erməni əsilli 64 yaşlı Fransa vətəndaşı Qilbert Minasyanın Qarabağ döyüşlərində vuruşmaq üçün Yerevana yola düşməsi barədə material yayımlamışdı. Məqalədə həmin şəxsin 1990-cı illərdə də Azərbaycana qarşı Ermənistan ordusunda döyüşdüyü bildirilirdi.

### Ermənilər baş nazirdən hesab sorurlar

Müharibə müddətində sosial şəbəkələrin ermənidilli seqmentini Ermənistan tərəfinin ciddi itkilər verməsi ilə bağlı paylaşımların müzakirəsi də zəbt etmişdi. Vurğulanırdı ki, yaralıların yerləşdirilməsi üçün Qarabağdakı hospitallarda yer qalmayıb və onlar helikopterlərlə, avtomobillərlə Yerevana göndərilirdi. Onu da əlavə edək ki, ermənilər sosial şəbəkələrdə saxta profillər açaraq yalan məlumatlar paylaşır və Azərbaycana qarşı kəşfiyyat-təxribat fəaliyyəti də aparırdılar.

Simon Sarkisyan "Facebook" sosial şəbəkəsində yazırdı ki, çox dəhşətli müharibə gedir: "Qardaşım oğlu işləri ilə əlaqədar Stepanakertdədi (Xankəndi - red.). Dünən deyir ki, informasiya qıtlığıdır. Erməni jurnalistlər məlumatları mülki vətəndaşlardan, tibb mərkəzlərindən, ölən əsgərlərin gətirildiyi kilsələrdən və ya təsadüfi şahidlərdən alırlar. Şahidlər isə dəhşətli faktlar açıqlayırlar. Bildirirlər ki, yaralıların sayı o qədərdir ki, onları daşımaq üçün helikopterlər çatmır, avtomobillərə yığıb aparırlar. Ona görə də onlar yolda ölürlər. Həkim çatışmır, dərman yoxdur".

Albert Simonyan adlı "Odnoklassniki" isifadəçisi Xankəndidən video paylaşaraq əhalinin təşviş içində qaçdığını qeyd edir: "Demək olar ki, hamı zirzəmilərdə gizlənir. Bizim itkilərimiz çoxdur".

Mane Martirosyan adlı "Twitter" sosial şəbəkə istifadəçisi yazır: "Özüm Ermənistanın Cermuk şəhərindənəm, ancaq bütün qohumlarım, o cümlədən anam Dağlıq Qarabağdadır. Onunla danışmışam, deyir ki, kişi əhalisi arasında səfərbərlik gedir. Deyəsən uduzmuşuq. Şuşa şəhəri bomboşdur, hamı evlərə sığınıb".

Harut Qriqoryan tərəfindən "Odnoklassniki" sosial şəbəkəsində Füzuli rayonu istiqamətində gedən döyüşlərlə bağlı paylaşılan xəbərə Martin Qalstyan adlı istifadəçinin rəyi də maraqlıdır: "Aprel döyüşlərindən sonra növbəti qorxunu yaşayırıq. Yalanlardan cana doymuşuq. Niyə ölən əsgərlərimizin sayını düzgün demirsiniz? Stepanakertdə yaşayan bir tanışım deyir ki, çox itkilər vermişik. Nə vaxtacan belə davam edəcək? Paşinyan, niyə Sarkisyanın yolunu tutmusan? Görəsən, Paşinyan növbəti rəzilliyindən utanırmı?!"

Syuzi Xaçatryan adlı "Facebook" istifadəçisi paylaşdığı statusda bildirib ki, xalqın yalançı Paşinyana inamı artıq tamam tükənib: "Atam ehtiyatda olan hərbi zabitdir. Müharibəyə çağırırlar, gizlənib getmir. Deyir ki, Sarkisyandan sonra Paşinyan Ermənistan üçün nə edib? Hamısı müharibə adı ilə ciblərini doldurub. Gənclərin cəbhədə səbəbsiz ölümündə birbaşa təqsirkardırlar. Əsgər valideynləri, övladlarınızın boş yerə, yalançı rejimin maraqları naminə qurban getməsinə mane olun, etiraz edin".

Ermənistanın baş naziri Nikol Paşinyanın "Facebook"da müharibə ilə bağlı çağırışına Vladislav Markaryanın rəyinə çoxlu reaksiya verilib: "Baş nazir, işiniz-gücünüz sosial şəbəkələrdə paylaşımlar etməkdir. Bizə müharibə lazım deyil, uşaqlarımızı çöldən tapmamışıq. Ayılın! Azərbaycan Stepanakerti geri qaytarmağa saatları sayır. Qaç, canını qurtar! Bu gedişlə Azərbaycan Yerevana kimi gələcək".

Karen Mxitaryan adlı "Facebook" istifadəçisi yazırdı ki, çox qorxulu vəziyyətlə qarşılaşıblar. Vardenis şəhərindən olan müəllim qeyd edir ki, son günlər qarşı tərəf itkilər versə də, bizdə onlardan daha çoxdur: "Gizlədilir. Səbəbsiz uşaqlarımız ölümə göndərilir. Paşinyana çox inanırdıq, ümidimizi puç etməkdə davam edir. Şəxsən hər vasitəyə əl atıb uşağımı hərbi xidmətdən yayındırmışam".

"Facebook" sosial şəbəkə istifadəçisi Davut Qasparyan yazır ki, xalqın sevimlisi olmaq istəyən Nikol Paşinyan da Serj Sarkisyan kimi Azərbaycan, onun rəhbərliyi qarşısında acizdir: "İlham Əliyev sonuncu bəyanatında Ermənistanla kifayət qədər sərt tonda danışdı, açıq şəkildə bildirdi ki, zəfər onların olacaq. Müharibə gedir, uduzuruq və indiyə qədər Paşinyan buna qarşı hansısa tutarlı cavab verə bilməyib. O, Serj Sarkisyandan qətiyyən fərqlənmir".

Beləliklə, Ermənistanda sosial şəbəkələrdə belə səpkidə şərhlərin və paylaşımların sayı kifayət qədərdir. Müharibədə məğlub olacaqlarını erməni cəmiyyəti ilk günlərdən dərk edirdi.

### "Paşinyanı Qəzzafinin gününə salmalıyıq"

Ermənistanın baş naziri Nikol Paşinyan Qarabağ müharibəsində məğlub və təslim olma aktını imzaladıqdan sonra Ermənistanda siyasi gərginlik pik nöqtəsinə çatdı. Noyabrın 10-dan etibarən Yerevanda baş verənlərdən sonra ölkədə, demək olar ki, hakimiyyətsizlik və siyasi xaos hökm sürür. İnsanlar Paşinyanın baş nazir postundan istefasını tələb edirlər. Bunu Ermənistanda on minlərlə insanın iştirakı ilə Paşinyan hökumətinin istefa verməsi tələbi ilə keçirilən aksiyalardan da görmək olar. Amma baş nazir küçələrə hərbi və polis qüvvələri çıxararaq sələfləri kimi hakimiyyəti güc yolu ilə qəsb etməyə hazır olduğunu göstərir.





Xatırladaq ki, noyabrın 9-dan 10-na keçən gecə Yerevanın mərkəzinə əhali imzalanan akta etiraz edərək küçələrə çıxıb. Etirazçılar hökumət binasına girib, şüşələri və qapıları qırıblar. Binada olan xüsusi xidmət orqanları əməkdaşları etirazçılara müqavimət göstərməyiblər. Etirazçılar daha sonra baş nazirin kabinetinə girərək dövlət atributlarını binadan çıxarıb istefa tələbi ilə çıxış ediblər. Onlar keçmiş prezident Robert Koçaryanı Paşinyana qarşı hərəkata rəhbərlik etməyə çağırıblar. İğtişaşlar nəticəsində baş nazirin iqamətgahından kompüterinin, saatının, sürücülük vəsiqəsinin və digər əşyaların oğurlandığı açıqlanıb. Yerevanda Ermənistan parlamentinin sədri Ararat Mirzoyan etirazçılar tərəfindən döyülüb.

Aksiyalara qatılanlar məqsədlərinə çatmaqda israrlı olduqlarını, Paşinyan idarəçiliyindən mütləq şəkildə canlarını qurtaracaqlarını bildirirlər. Anton Melkumyan adlı etirazçı deyir ki, Paşinyan Ermənistana xəyanət etdi: "Bundan əvvəlki dövrdə Sarkisyan vətənimizi, zavodlarımızı, torpaqlarımızın yarısını quldur oliqarxlara, yarısını da xaricilərə satdı. Onun rəhbərliyi altında Ermənistan xaricilər üçün gəlir mənbəyinə çevrildi. Paşinyan gəldikdən sonra da dəyişən bir şey yoxdur. Hər ikisi xalqı yox, öz gələcəklərini fikirləşiblər".

Anuş Petrosyan adlı sakin isə Paşinyana müraciət edərək soruşub ki, bütün milləti aldatdığına və xəyanət etdiyinə görə nə zaman həbs olunacaqsan: "Müharibə edə bilmirsənsə, bunu açıq söyləyərdin. Övladlarımızı qırdın. Mən mühakimə tələb edirəm. Səni yandırmaq kifayət deyil!"

Emin Navasartiyan adlı erməni bildirib ki, vətənə xəyanət ən ağır cəza səviyyəsində cavablandırılmalıdır: "Paşinyana edam!"

Dezik Poqosyan adlı sakin qeyd edib ki, Paşinyanın hakimiyyətə gəlməsi üçün hər şey etdik: "Gecələr yuxusuz qaldıq, keçmiş hakimiyyətə qarşı bərabər mübarizə apardıq. Paşinyan isə xəyanət etdi. Paşinyanı Müəmmar Qəzzafinin gününə salmalıyıq".

Xalq arasında nüfuzunu tam itirən Paşinyan isə özünə qarşı edilən bütün çıxışları birmənalı şəkildə güc yolu ilə susdurmağa, etiraz aksiyalarını polis dəyənəyi və rezin gülləsi hesabına dağıtmağa üstünlük verir. Baş nazirin göstərişinə əsasən, kütləvi həbslər həyata keçirilir, siyasi partiya rəhbərləri, fəallar saxlanılır, həbs edilir, deputatlara qarşı hücumlar təşkil olunur.

### Müxalifət vətəndaş müharibəsinə hazırlaşır

Ermənistanın siyasi partiyaları da birgə bəyanat yayaraq N.Paşinyan başda olmaqla hökumətin istefasını tələb ediblər. 17 partiyanın imza atdığı sənəddə Ermənistanın hərbi-siyasi rəhbərliyinin mövcud problemlərin öhdəsindən gələ bilmədiyi qeyd olunub. Bu baxımdan siyasi partiyalar Paşinyan və onun kabinetinin könüllü və dinc şəkildə istefasını, dərhal yeni hökumətin qurulmasını tələb edirlər. Bəyanatı "Azadlıq", "Milli Təhlükəsizlik", "Milli Demokratik Birlik", "Alyans", "Çiçəklənən Ermənistan", "Daşnaksütyun", "Həmrəylik", "Ermənistanın Milli Liberal Birliyi", Ermənistanın Respublika Partiyası, "Ermənistan Xristian Demokratik Birliyi", "Vətən", "Vahid Ermənistan" və digər partiyalar imzalayıblar.

"Çiçəklənən Ermənistan" partiyasının üzvü, deputat İveta Tonoyan Nikol Paşinyanı dərhal istefa verməyə çağıraraq deyib ki, tariximizin ən biabırçı səhifəsi yazıldı: "Bir neçə saat əvvəl "Çiçəklənən Ermənistan" və bir sıra digər partiyalar baş nazirin istefasını tələb etdilər. Bütün bu baş verənlərdən sonra istefa Paşinyanın etməsi lazım olan ən kiçik şeydir".

Paşinyanın istefasını tələb edən müxalifət fəallarından Ermənistan milli təhlükəsizlik xidmətinin keçmiş direktoru, "Vətən" partiyasının sədri Artur Vanesyan "Çiçəklənən Ermənistan" partiyasının sədri Qaqik Tsarukyan, "Respublikaçılar" partiyasının nümayəndələri Eduard Şarmazanov, sabiq deputatlar Vaqram Baqdasaryan, Vardan Ayvazyan, Qeqam Petrosyan, Ayk Mamidjanyan, Karine Açemdilibyan, "Vətən" partiyasının nümayəndələri Arsen Babayan, Vardan Voskanyan, "Erkir media" telekanalının rəhbəri Qeqam Manukyan və "Daşnaksütyun" partiyasının nümayəndəsi İşxan Saqatelyan polis tərəfindən həbs edilmişdilər.

Ermənistanın Milli Təhlükəsizlik Xidməti ölkə parlamentinin sabiq vitse-spikeri Eduard Şarmazanovu qanunsuz toplantının təşkil edilməsi ittihamı ilə həbs etmişdi.

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanetsyan Paşinyanın ictimai təzyiqlər artdıqca istefa verəcəyini bildirib. O qeyd edib ki, Paşinyan "baş nazir" adlandırılmasın, çünki artıq onun belə adlandırılmasına mənəvi haqqı yoxdur: "O, baş nazir postunu ələ keçirən, öz fəaliyyəti ilə Ermənistanı dərin bir uçuruma aparan adamdır. Müxalifət işləyir və Paşinyan ictimai təzyiq artdıqca istefa verəcək". Vanetsyan deyib ki, Paşinyanın 2,5 illik fəaliyyəti bütün istiqamətlərdə uğursuzluqla nəticələnib. Belə bir şəxs yol xəritəsi dərc edə bilməz. Ölkənin dövləti bu çətin vəziyyətdən çıxara biləcək mütəxəssislərə, vətənpərvərlərə, milli fikir daşıyıcılarına ehtiyacı var.

### Azərbaycan Ermənistan iqtisadiyyatını tam çökdürüb

Ermənistanda müharibə məğlubiyyəti və pandemiya fonunda baş verən son hadisələr bu ölkənin sosial-iqtisadi həyatında olduğu kimi, siyasi fonda da problemlərini dərinləşdirib. Xüsusən Paşinyan hakimiyyəti ilə keçmiş iqtidarların təmsilçiləri arasında kəskinləşən qarşıdurma yeni siyasi xaosun formalaşmasına səbəb olub, proseslər daha gərgin mərhələyə qədəm qoyub.

"Fitch" beynəlxalq kredit reytinq agentliyi də bu ölkənin kredit reytinqini aşağı salıb. Belə ki, müharibənin davam etdiyi günlərdə "Fitch" Ermənistanın xarici valyutada uzunmüddətli kredit reytinqinin "BB-"dən "B+" səviyyəsinə endirildiyini açıqlayıb. Bu onu göstərir ki, Ermənistanda iqtisadi geriləmə proqnozlaşdırıldığından daha kəskindir. Hesablamalara görə, ilin sonuna bu ölkədə ÜDM-in səviyyəsi 6,8 faiz azalaraq 13 milyard dollar təşkil edəcəkdir. Amma hərbi əməliyyata çəkilən xərclər fonunda azalmanın daha çox olması gözlənilir. Azərbaycanın yalnız dronları Ermənistanı bir milyard dollarlıq ziyana salıb.

Hesablamalara görə, müharibənin bir günü Ermənistan üçün təxminən 30 milyon dollara başa gəlib. "4rd.am" saytı yazır ki, Dağlıq Qarabağda müharibənin davam etməsi Nikol Paşinyan hakimiyyətinin bu günə kimi 1,2 milyard dollardan çox maliyyə itirməsi ilə nəticələnib: "Ermənistan müharibədən öncə də iqtisadi baxımdan son dərəcə zəif ölkə idi. Bu qədər itkiləri də nəzərə alanda postmüharibə dövründə ölkənin iqtisadiyyatının nə günlərə qalacağını təsəvvür eləmək çətin deyil. Otuz il ərzində qurulan və 44 günə darmadağın edilən ordunu əvvəlki vəziyyətdə bərpa etmək üçün Ermənistana indi ən azı 5-6 milyard dollar əlavə vəsait lazım olacaq".

Ümumiyyətlə, Ermənistanda vəziyyət koronavirus pandemiyasına və Qarabağ müharibəsinə qədər də kifayət qədər acınacaqlı idi. Belə ki, 2019-cu ilin yekunlarına görə, Ermənistanın xarici ticarət balansının kəsiri 48 faiz təşkil edirdi. Müqayisə üçün deyək ki, 2019-cu ildə Azərbaycanın xarici ticarət balansında müsbət saldo 70 faizdən çox idi. Ermənistan 2019-cu ildə 2,6 milyard dollar həcmində məhsul ixrac etsə də, onun idxalı 5,5 milyard dollardan çox olmuşdu. Hazırda xarici ticarət balansındakı 3 milyard dollara qədər kəsiri bağlamağın yeganə yolu isə dövlətin borclanmasıdır. Belə ki, işğalçı Ermənistan artıq ümumi daxili məhsulunun 70 faizi qədərində xarici borclanma şəraitindədir və bu, sürətlə artmaqdadır.

Göründüyü kimi, müharibədəki məğlubiyyət Ermənistana yeni çətin günlər vəd edir. Hakimiyyətin səriştəsiz siyasəti üzündən qarşıdakı dövr ərzində Ermənistan yeni böyük problemlərlə üzləşəcək.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***









# Qəhrəmanlıqları ilə qürur duyduğumuz əməkdaşlarımız

44 günlük Vətən müharibəsi Azərbaycan xalqına zəfər sevincini bəxş etməklə yanaşı, qəhrəman oğullarını da bir daha cəmiyyətimizə tanıtdı. Neçə-neçə igid oğullar Vətən uğrunda haqq savaşının iştirakçısı, şəhid və ya qazi oldular.




